46_27 IYUl-QARA.qxd 12/4/2025 8:55 PM Page 1

UNİKAL

№46 (2276) 5 dekabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# MİDA-dan növbəti narazılıq:

## Güzəşt siyasətinə kölgə salınır, yoxsa...




Səh.5

## Əbülfəs Qarayevin Londonda qeyri-adi macəraları

*Bu günlərdə sabiq mədəniyyət naziri Əbülfəs Qarayev yenidən medianın gündəminə gəldi. Öncə onun Bakıda özünə təmtəraqlı ad günü keçirməsi, 69 yaşını ehtişamlı şəkildə qeyd etməsi barədə xəbər yayılıb. Ardınca isə sabiq nazir həmin xəbərə münasibət bildirib. Qarayev yayılan məlumatı “bir həftədir Londondayam, bura mühazirə deməyə gəlmişəm” deyərək təkzib edib. Lakin o, təfərrüatları açıqlamayıb. Yəni Britaniya paytaxtında məhz harada və hansı mövzuda mühazirə oxuduğuna aydınlıq gətirməyib. Ona görə də istər-istəməz sual yaranır: Əbülfəs müəllimin mühazirəsinə kimlər və niyə ehtiyac duyub? Üstəlik, o, nədən mühazirə oxuya bilər ki?*

Səh.7

## “Mənzil bazarında qiymətlər bahalaşdıqca, əlçatanlıq azalır”



*Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı ”Unikal”a müsahibə verib. O, MİDA-nın güzəştli mənzillərinin satışı ilə bağlı alternativ variant üzərində işlənməsindən, hazırda əmlak bazarında qiymətlərin necə dəyişdiyindən, növbəti ildə mənzil qiymətlərinin artıb ya azalacağından və sənədsiz evlərin...*

Səh.4

## Ətin qiymətindəki böyük bahalaşmanın yeni gizlinləri



*Bu ilin yanvar ayı ilə müqayisədə oktyabr ayında Azərbaycanda ət və ət məhsullarının qiymətlərində böyük artım qeydə alınıb. Bir neçə gün əvvəl açıqlanan rəqəmlərdən məlum olub ki, ən böyük bahalaşma konservləşdirilmiş mal ətində, sümüklü və sümüksüz mal ətində, həmçinin mal farşında müşahidə olunub.*

Səh.8

## Özəl klinikalarda bitmək bilməyən “bezpredel”



*Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) ”Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” qanunun 16-cı maddəsinə əsasən, ”Aristokrat” Tibb Mərkəzində 2 dekabr 2025-ci il tarixində plandankənar (növbədənkənar) yoxlama keçirib.*

Səh.9

46_27 IYUI-QARA.qxd 12/4/2025 8:59 PM Page 2



# Bu qalmaqalda Flora Kərimovaya dəstək oldular



***Xəbər verdiyimiz kimi, Əməkdar artist Elton Hüseynəliyev Xalq artisti Flora Kərimova və Əməkdar artist Lalə Məmmədova ilə bağlı qalmaqallı açıqlama verib.***

Xalq artisti Flora Kərimovanı misal çəkən Əməkdar artist bildirib ki, onun 500 ifasından yalnız 100-ü "yağbal"dır. Yerdə qalan 400 ifası isə təkrar ifalardır.

Xalq artisti Flora Kərimova isə öz sosial şəbəkə hesabında bununla bağlı paylaşım edib. F.Kərimova bildirib ki, düşünüb danışmaq gözəldir, çünki səsləndirdiyin fikrə görə üzr istəməyə lüzum qalmır: "Vicdanınız sızlamadan, insanın duyğularını, ruhunu, yaşını, durumunu hesaba qatmadan nəyi istəsəniz efirdə müzakirə edə bilərsiniz. Necə ki, edirsiniz və edəcəksiniz də. Sənətim barədə danışmağa mənim tör-töküntülərimlə sənətkar olub sizə örnəklik edənlərin səviyyəsinə çatanda haqqınız olacaq. sənətimi müzakirə etmək üçün isə sizin dilinizlə deyim Elton o "100 qaymaq mahnım yox, qızıl fondda qalan 400 dəxlisiz" oxuduğum mahnıların birinin səviyyəsində tək sən yox elə ustadların daxil oxuya biləcəyiniz halda haqqınız çatar! Elton, "elə demək istəməmişdim" deyəcəksiniz, mənəvi gücünüz çatacaqsa üzr də istəyəcəksiniz, ya da heç istəməyəcəksiz. Gözləntim də yoxdur. Nə vaxtsa qismət olsa, qarşılaşsaq, sizi öpüb yenə oğlum deyib qucaqlayacağam. Lakin, bu dünyadan nigaran köçməyimə daha bir təəssüfün səbəbkarı oldunuz. Və bir də oğul, Allah qismət etsin gəlib bir həddə çatacaqsınız. Kimsə ümidlə qapınızı döyər, biləcəksinizki ki, oxuyacağın şeir, mahnı, duet fərq etmir onun ruzi, çörək qapısını aralayır. Sizdə də özlüyünüzdə eqonuzu, təkkəbürünüzü sındırıb bir tikəyə, ümidə, sevincə vəsilə olacaqsınız. Hələ onu da Allah nəsib eləsə o vaxt ayıq başınızla tək məni deyil, həyatı da başa düşəcəksiniz".

Elton bu fikirlərinə görə sosial şəbəkədə tənqid edilib. F.Kərimovanın paylaşımında isə sənət adamları ona dəstək durublar.

L.Məmmədova paylaşımda "Can Flora xanım, ürəyinizə salmayın, Tanrı sizi xalqımıza, musiqimizə ən qiymətli bir inci verib, Allah sizi bizə çox görməsin. Allah ona da şəfa versin, nə deyək" şərhini qeyd edib.

Müğənni İradə İbrahimova paylaşıma "Flora Kərimova, siz bizim her mənada tayı olmayanımız, günəşimizsiniz. Sizi çox sevirəm" şərhini yazıb.

Müğənni Xuraman Şuşalı isə "Sənətkarım, fəxrimiz, təkrarsız səs, xanım... Varlığınız neymətimizdir. Var olun" sözlərini əlavə edib.

Müğənni Sevinc Musayeva "Sizi sevirik, eybi yox, danışsınlar. Boş verin, bağışlayın. Böyüklük sizdə qalsın. Bizim sehirli səsi olan karifey sənətkarımızsınız" deyə, şərh bildirib.

Qeyd edək ki, Elton F.Kərimova və L.Məmmədova haqda "Lalə Məmmədova Brilliant Dadaşovanın kopyasıdır. Flora Kərimovanın 500 mahnısının 100-ü baldır, 400-nün isə dəxli yoxdu, hamıdan oxuyub" sözlərini deyib.

# Nadir Qafarzadə ilə Günay İbrahimli arasında gərginlik: "Kobudluq etdi, mən də dedim..."

***Xəbər verdiyimiz kimi, müğənni Günay İbrahimli toy məclislərindən birində həmkarı Nadir Qafarzadəninin onu səhnəyə çıxmağa qoymadığını deyib.***



Məsələ ilə bağlı Qafarzadə Axşam.az-a açıqlama verib. O bildirib ki, məclisdə ona təqdim olunan siyahıda Günayın adı yer almayıb: "Elə bir şey olmayıb. Mən belə şey etmərəm. Toy sahibi başqasıdır, mən aparıcıyam. Bizə əvvəldən deyilir toyda kim olacaq. Günay İbrahimli siyahıda yox idi. Onu sürpriz kimi gətirmişdilər. Ondan əvvəl siyahıda başqa ifaçının vaxtı idi və onu təqdim etdim. Günay isə gəlib istədi tez oxusun. Köməkçisi kobud şəkildə, böyük-kiçik yerini bilmədən yaxınlaşdı. Mən də dedim ki, ay uşaq, get otur yerində".

Müğənni bildirib ki, Günayın bu məsələni efirdə danışmasını bəyənməyib: "Biz telefonda danışmışıq, təzədən efirdə deməyi lazım deyildi. Özü də efirdə dedi ki, telefonda danışdıq.. Bəs niyə efirdə təzədən dedin? Müğənnilərn köməkçisi özünü elə aparsın ki, yanındakı ifaçıya hörmət etsinlər. Mən illərin Nadir Qafarzadəsiyəm, ehtiyatlı olsunlar. Müğənnilər yox, günah onladın köməkçilərindədir. Mənə qarşı ehtiyatlı olsunlar, yekəxanalığı sevmirəm. Heç kimlə işim yoxdur, hər kəs pulunu qazanır. Pulu mən vermirəm. Gəlsinlər, pullarını alıb getsinlər".



# "İlhamə Quliyeva çox qəlblər qırırdı, ona görə də..." - Röya Ayxan

***Xalq artisti Röya Ayxan "Tarixin bir günü" verilişində maraqlı fikirləri ilə diqqət çəkib.***

Pop ulduz xüsusilə mərhum Xalq artisti İlhamə Quliyeva barədə söylədikləri ilə gündəmə gəlib.

Röya bildirib ki, İlhamə Quliyevanın sənətdəki yeri heç vaxt doldurula bilməz: "Çox qəlblər qırırdı, çox əsəbi adam idi, buna görə bir çox sənət adamı onun yerində özünü görmək istəmirdi. Amma nə olursa-olsun, o böyük sənətkar idi. Onun yerində ola bilmərik. O, dahi olub".

Sənətçi eyni zamanda bəzi gənc ifaçıların İlhamə Quliyeva barədə tənqidi fikirlərinə də etiraz edib: "Onun arxasınca danışan gənclərin söz deməyini ümumiyyətlə qəbul etmirəm. Çünki mən də vaxtilə belə səhvlər etmişəm. Sonra mənim yaşlarıma çatanda sakitləşdirici dərmanlar qəbul etməsinlər".

Röyanın sözləri sosial şəbəkələrdə geniş müzakirəyə səbəb olub və tamaşaçılar arasında müxtəlif reaksiyalar doğurub.

# "O qədər dediniz ki, dodağımı balacalaşdırdım"

***Müğənni Aysun İsmayılova görünüşü ilə bağlı edilən iradlara münasibət bildirib.***



Sosial şəbəkədə dodaqlarının böyük olması barədə tez-tez ünvanlanan tənqidlərə reaksiya göstərən ifaçı müdaxilə etdiyini təsdiqləyib.

Sənətçi bildirib ki, izləyicilərin uzun müddətdir davam edən şərhlərindən sonra dodaqlarındakı dolğunu kiçildib: "İstəyirəm ki, görəsiniz. O qədər dediniz ki, artıq dodağımı balacalaşdırdım. Təbii dolğunu tamamilə əritdik. Məncə, bu dəfə idealdır. Bundan da balaca etdirməyəcəyəm, əl çəkin".

Aysun İsmayılova həmçinin saçlarında da dəyişiklik etdiyini deyib: "Bu arada saçıma da əl gəzdirdik".

İfaçının paylaşımı sosial şəbəkədə geniş müzakirəyə səbəb olub. Bir qrup izləyici yeni görünüşü bəyənərkən, digərləri dəyişiklik barədə fərqli şərhlər yazıblar.

# Ətin qiymətindəki böyük bahalaşmanın yeni gizlinləri

## Qiymətlərin aşağı enməsinə hansısa “gözəgörünməz qüvvə” imkan vermir? - Suallar çoxdur, cavablar isə...



***Bu ilin yanvar ayı ilə müqayisədə oktyabr ayında Azərbaycanda ət və ət məhsullarının qiymətlərində böyük artım qeydə alınıb. Bir neçə gün əvvəl açıqlanan rəqəmlərdən məlum olub ki, ən böyük bahalaşma konservləşdirilmiş mal ətində, sümüklü və sümüksüz mal ətində, həmçinin mal farşında müşahidə olunub.***

Məlumata görə, sümüksüz mal ətinin orta satış qiyməti yanvarda 17,56 manat olduğu halda, oktyabr ayında 19,30 manata yüksəlib. Bu isə 1,74 manatlıq (təxminən 10%) artım deməkdir. Konservləşdirilmiş mal ətində isə qiymət 12,85 manatdan 14,45 manata yüksələrək 1,60 manat bahalaşıb.

Sümüklü mal ətinin qiymətində də diqqətçəkən artım var - ilin əvvəlində 14,46 manat olan məhsul oktyabrda 15,94 manata satılıb. Bu isə 1,48 manatlıq yüksəlişdir.

Qoyun ətində artım 1,02 manat, mal ciyərində 0,78 manat, suda bişmiş və hisə verilmiş kolbasa məhsullarında isə artım müvafiq olaraq 0,81 və 0,74 manat təşkil edib.

Toyuq əti bazarında isə dəyişiklik minimal olub. Toyuq ətində qiymət artımı cəmi 5 qəpik, toyuq filesində isə 3 qəpik səviyyəsində qalıb. Əlavə toyuq məhsullarında ümumiyyətlə dəyişiklik qeydə alınmayıb.

Ümumilikdə statistika göstərir ki, qırmızı ət və ət məhsulları seqmentində bahalaşma daha kəskin xarakter daşıyıb. Bəs bu ciddi qiymət artımının səbəb(lər)i nələrdir?

### Noyabrda ucuzlaşma?! - Rayonlarda başqa, Bakıda başqa...

Bu yaxınlarda bəzi KİV-lər yazırdılar ki, bölgələrdə heyvanlar arasında dabaq xəstəliyinin yayılması ilə bağlı məlumatlardan sonra mal ətinə tələbat azalıb. Bu isə mal ətinin qiymətinin enməsinə səbəb olub. Satıcılar ucuzlaşmanın təxminən 2 manat civarında olduğunu bildirmişdilər.

Xəzər TV bildirirdi ki, məsələn, Tovuzda iri və xırdabuynuzlu heyvan ətinin qiyməti enib.

İribuynuzlu heyvan ətinin 1 kiloqramı əvvəl 17 manat idisə, indi 15 manata təklif olunur. Xırdabuynuzlu heyvan ətində də 1-2 manatlıq ucuzlaşma müşahidə edilir. Əvvəllər 20 manata satılan quzu əti isə indi 18 manata təklif olunur.

Cəlilabadda da ətin qiymətində 1 manat-1 manat 50 qəpik arası enmə qeydə alınıb. Satıcıların sözlərinə görə, əvvəllər 16-16,50 manata satılan mal əti indi ucuzlaşıb. Hazırda mal ətinin 1 kiloqramı müştərilərə 15 manata təklif olunur. Satıcılar əlavə edirlər ki, qiymətlər düşsə də, alıcı sayı hələ də azdır.

Satıcılar onu da bildirmişdilər ki, ətin qiymətinin aşağı düşməsinin bir səbəbi xəstəliklə əlaqələndirilsə də, digər səbəbi ölkəyə ucuz heyvan ətinin idxal olunmasıdır.

Lakin paytaxt Bakıda son müşahidələr ətin qiymətində noyabr ayı boyunca ucuzlaşma olduğunu söyləməyə əsas vermir. Hazırda paytaxtda sümüklü mal əti 18, sümüksüz mal əti isə 20 manatdan yuxarı satılır. Bəzi yerlərdə sümüksüz mal ətinin qiyməti 22 manatdır.

### Bazarda absurd: idxal artır, ancaq qiymət enmir ki, enmir!

Təzəlikcə kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov maraqlı bir nonsensə diuqqət çəkmişdi: “ Azərbaycanda ət bazarını sanki gözəgörünməz bir qüvvə idarə edir. Bəzən heç bir əsas olmadan qiymətlər qalxır. Halbuki son vaxtlar ölkəyə xaricdən - Monqolustandan, Hindistandan, Rusiyadan çoxlu dondurulmuş ət idxal olunur. Bunlar keyfiyyətli məhsullardır. Belə olan halda, bazara ucuz ət daxil olanda qiymətlər düşməlidir, amma nədənsə enmir. Məsələn, bazarda kiloqramı 12 manata Monqolustan quzusu satılır, amma yerli quzu ətinin kiloqramının qiyməti 21-22 manatdan aşağı düşmür”.

“Kaspi”yə açıqlamasında ekspert onu da demişdi ki, əslində, ölkədə ət istehlakı daha çox iaşə obyektlərində baş verir: “Məsələn, bir qəssabxana sadə vətəndaşa gündə dörd quzu satırsa, bir restoran 20 quzu alır. Artıq bir çox restoranlar Monqolustan quzusu alır. Bu isə o deməkdir ki, yerli quzu satılmadığı üçün qiymət aşağı düşməlidir, amma bu baş vermir”.

Göründüyü kimi, ölkənin ət bazarındakı bahalaşmanı normal qarşılamaq mümkün deyil. Belə çıxır ki, problemin kökü lap dərinlərdədir, elə mütəxəssisin diqqət çəkdiyi “hansısa gözəgörünməz qüvvədə”...

### Heyvandarlığı kimlər və necə “öldürürlər”?

Bəzi ekspertlərin fikrincə, Azərbaycanda istehlakçılar dondurulmuş, ümumiyyətlə idxal edilmiş ətə həvəs göstərmirlər. Elə bu səbəbdən də, məsələn, Monqolustandan idxal edilən və keyfiyyətinə istər aidiyyatı qurumların, istərsə də mütəxəssislərin tam təminat verdiyi ətin qiymətinin ucuz olmasına baxmayaraq alıcılar ona maraq göstərmirlər. Yaxın vaxtlarda da həmin vəziyyətin dəyişəcəyinə ümid azdır. Belədə Azərbaycanda ətin ucuzlaşması yerli istehsalı gücləndirməkdən, heyvandarlığın inkişafını təmin etməkdən keçir. Lakin təəssüf ki, dövlətin sözügedən sahəyə ayırdığı vəsaitlərin effektiv xərcləndiyini söyləmək mümkün deyil.

Uzağa getməyək, bu ilin sentyabrında Hesablama Palatasının Aqrar Xidmətlər Agentliyində apardığı yoxlama (kənar dövlət maliyyə nəzarəti” ortaya ciddi nöqsanlar çıxarmışdı. Məsələn, məlum olmuşdu ki, auditin əhatə etdiyi dövrdə - 01.01.2023-cü il tarixindən 01.01.2025-ci il tarixinədək - ölkə üzrə kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsi əsasən yerinə yetirilməyib, bu da baytarlıq sahəsi üzrə bir sıra xüsusi təhlükəli xəstəliklərin profilaktik peyvəndləmə işlərinin planlaşdırılması və icrasında mütərəqqi təcrübələrə və risk əsaslı yanaşmalara deyil, ümumi naxırda tam sürü prinsipinə üstünlük verilməsini şərtləndirib. Və ya: identikləşdirilmə prosesinin lazımi səviyyədə həyata keçirilməməsi və elektron informasiya sisteminin formalaşdırılmaması şəraitində, həmçinin heyvanların hərəkətinin izlənilməsi, profilaktik peyvəndləmə işlərinin ünvanlılığının (həqiqiliyinin) müəyyənləşdirilməsi mümkünsüz olmuşdur. Eyni zamanda, iribuynuzlu və xırdabuynuzlu heyvanların baş saylarının hesabatlılıq göstəriciləri Dövlət Statistika Komitəsinin göstəricilərindən əhəmiyyətli (11,0-16,0% intervalında) fərqlənməklə ölkə üzrə uçotun etibarlı olmaması müəyyənləşdirilmişdir.

Bir sözlə, heyvandarlıq sahəsində şəffaflıq yetərincə deyil.

Digər tərəfdən, ölkəboyu örüş sahələrinin böyük bir qismi ya əkinçilik məqsədilə istifadəyə yönəldilib, ya da kimlər tərəfindənsə təyinatdan kənar başqa səbəblər üçün faktiki şəkildə özününküləşdirilib. Belədə heyvandarlığın inkişafından danışmaq uzaqbaşı xəyalpərvərlik, ya da gərəksiz sadəlövhlükdür.

Ekspertlərin fikrincə, dövlət büdcəsindən kənd təsərrüfatının inkişafı üçün böyük məbləğdə vəsait ayrılmasına baxmayaraq bir sıra mühüm problem hələ də aktuallığını qoruyur. Bunlardan başlıcası sovet dövründə geniş fəaliyyət göstərən damazlıq təsərrüfatlarının hazırda barmaqla sayılacaq qədər az olmasıdır. Xaricdən gətirilən heyvanların yerli iqlimə uyğunlaşdırılmasının çətinliyini nəzərə alsaq, damazlıq təsərrüfatlarının artırılması mühüm şərtdir. Nəticə etibarilə bir tərəfdən hazırda Azərbaycanda olan heyvan cinsləri cırlaşır, digər tərəfdən isə yeni heyvan cinslərinin yaradılması üçün fermerlərə heç bir kömək edilmir. Bu şəraitdə Azərbaycanda heyvandarlığın istənilən sürətdə və müddətdə inkişafını necə təmin etmək olar?

Bu sıraya yem bazası ilə bağlı problemin də illərdir effektiv həll olunmamasını da əlavə elədikdə, görünən odur ki, ölkədə heyvandarlığın inkişafına dövlət dəstəyi böyük ölçüdə ya kimlərinsə məsuliyyətsiz yanaşmasının, ya da yarıtmaz fəaliyyətinin güdazına gedib.

Nəticə etibarilə isə illər öncəyədək əhalinin ətə olan tələbatı əsasən yerli istehsal hesabına ödənildiyi halda indi idxaldan asılılıq getdikcə artır. Bu isə heyvandarlıq sahəsində şəffaf və effektiv fəaliyyəti qaçılmaza çevirir. Bəs aidiyyatı qurumlardan bunu gözləyəkmi? Hər halda bu sualın dəqiq cavabı zamanla ortaya çıxacaq.

Hələliksə görünən odur ki, “Ətin qiyməti yenə bahalaşdı” tipli xəbərləri bundan sonra da çox oxumalı olacağıq...

***Sənan Mirzə***

46_27 IYUl-QARA.qxd 12/4/2025 9:05 PM Page 4



# Özəl klinikalarda bitmək bilməyən "bezpredel"

## Təkcə bir həftədə iki klinika cəzalandırıldı - Tənbehlər, cərimələr nəyisə dəyişmir, elə isə nə etməli?



***Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanunun 16-cı maddəsinə əsasən, "Aristokrat" Tibb Mərkəzində 2 dekabr 2025-ci il tarixində plandankənar (növbədənkənar) yoxlama keçirib.***

Xidməti yoxlama zamanı aşkar edilmiş nöqsanlar rəsmiləşdirilib, hüquqi və fiziki şəxslərin barəsində inzibati tənbeh tədbiri seçilərək, sertifikasiya şəhadətnaməsi olmayan şəxslərin praktik tibb fəaliyyətinə buraxılmasına görə (Araz Məmmədzadə) hüquqi şəxsə ("Aristokrat Tibb Mərkəzi" MMC-yə) inzibati xətalar məcəlləsinin 215.4 maddəsi ilə, sertifikasiya şəhadətnaməsi olmadan "stomatoloji" praktik tibb fəaliyyəti ilə məşğul olan fiziki şəxsə (Araz Məmmədzadəyə) İnzibati Xətalar Məcəlləsinin 215.1 maddəsi ilə inzibati xəta haqqında protokol tərtib edilib. Tərtib olunmuş protokollar yoxlama materialları ilə birlikdə növbəti icraata göndərilib.

Bu yaxınlarda AEM tərəfindən Nərimanov rayonu, Akademik Həsən Əliyev küçəsi 29 ünvanında yerləşən "New Med" klinikasında da plandankənar (növbədənkənar) yoxlama aparılmış, klinika barəsində İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi ilə protokol tərtib edilib və işə məhkəmədə baxılmışdı. Məlum olmuşdu ki, özəl tibb müəssisəsində keçirilən plandankənar yoxlama zamanı həkimlərin sertifikatsız özəl praktik tibbi fəaliyyətlə məşğul olması faktı aşkarlanıb.

Məhkəmənin hökmü ilə "New Med" klinikası İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətməkdə təqsirli bilinmiş və 6 min manat cərimə edilmişdi.

Ümumiyyətlə isə təkcə ilin əvvəlindən sentyabr ayının ortalarına qədər AEM tərəfindən 149 özəl tibb müəssisəsində plandankənar, 85 özəl tibb müəssisəsində isə planlı yoxlamalar aparılıb.

Qeyd olunan dövrdə özəl tibb müəssisələrində həyata keçirilən yoxlamalar nəticəsində 45 işçinin sertifikasiya şəhadətnaməsi olmadan fəaliyyət göstərdiyi aşkarlanıb və bununla əlaqədar İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi ilə müvafiq protokollar tərtib edilib.

Lakin göründüyü kimi nə aparılan yoxlamalar, nə çıxarılan inzibati tənbeh qərarları və tərtib olunan cərimə protokolları özəl klinikaları qorxutmur. Onlar bir yandan sertifikasiya şəhadətnaməsi olmayan şəxsləri praktik tibb fəaliyyətinə buraxmaqda, o bir yandan da lisenziyada göstərilməyən tibbi xidmətləri həyata keçirməkdə davam edirlər. Üstəlik, bu cür halların çoxu ya medianın araşdırmaları, ya da vətəndaşların şikayətləri əsasında aşkarlanır. Yəni əslində Səhiyyə Nazirliyinin müvafiq qurumu yoxlamaları dərinləşdirsə, ölkədəki əksər özəl klinikanın eyni özbaşınalıqlara rahatlıqla yol verdiyi ortaya çıxacaq.

Bir məqamı da vurğulamaq yerinə düşür ki, gedişat özəl klinikaların istər cərimələrdən, istərsə də digər yumşaq cəza tədbirlərindən çəkinməməsi qanunlar çərçivəsində daha sərt addımlar atılmasını qaçılmaza çevirir. Unutmayaq ki, söhbət xalqın sağlamlığından gedir və kimlərinsə daha çox qazanc naminə insanların həyatını risk altında qoya biləcək özbaşınalıqlara rahatca qol qoyması yolverilməzdir. Belələri, qanunların sərt üzünü mütləq görməlidirlər ki, digərlərinə də dərs olsun və biz hansısa tibb müəssisəsində sertifikasiya şəhadətnaməsi olmayan şəxslərin çalışdığına, lisenziyada göstərilməyən tibbi xidmətlərin göstərildiyinə dair xəbərləri bir daha oxumayaq!

***Sənan Mirzə***



## Elçin Əmirbəyov İsveçrə tərəfini mina problemi barədə məlumatlandırıb

***Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov İsveçrəyə işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər üzrə dövlət katibi Aleksandr Fasel, eləcə də Milli Şuranın Xarici Əlaqələr Komitəsinin sədri Loran Verli və onun müavini Sibel Arslan ilə görüşlər keçirib.***

"Unikal" xəbər verir ki, görüşlər zamanı Azərbaycanla İsveçrə arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və perspektivləri ətraflı müzakirə olunub.

Tərəflər siyasi, iqtisadi və humanitar sahələrdə praktiki əməkdaşlığın daha da dərinləşdirilməsi, həmçinin parlamentlərarası əlaqələrin canlandırılması istiqamətində ciddi iradə və qarşılıqlı maraqlarını ifadə ediblər.

E.Əmirbəyov həmçinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesinin hazırkı vəziyyəti və perspektivləri, bölgədə dayanıqlı sülhün və inkişafın təmin olunması məqsədilə Azərbaycan tərəfindən atılan konkret addımlar barədə qarşı tərəfi məlumatlandırıb. Bu kontekstdə regionda nəqliyyat kommunikasiyalarının bərpasının və Cənubi Qafqazın tranzit potensialının artırılmasının, xüsusilə də beynəlxalq sülh və rifah naminə "Tramp Marşrutu"nu da özündə birləşdirən Zəngəzur dəhlizinin işə salınmasının strateji əhəmiyyəti izah olunub.

Prezidentin nümayəndəsi, eyni zamanda, səfər çərçivəsində ölkənin siyasi və iqtisadi elitasının nüfuzlu təmsilçilərini bir araya gətirən nüfuzlu platforma - Bern Siyasi Klubunun təşkil etdiyi tədbirdə çıxış edərək Cənubi Qafqazda gedən geosiyasi proseslər və Azərbaycan ilə Ermənistan arasında sülh prosesi haqqında təqdimatla çıxış edib və iştirakçıların suallarını cavablandırıb.

Elçin Əmirbəyov keçirilmiş görüşlər zamanı İsveçrə tərəfini Ermənistanın işğalı dövründə Azərbaycanın mədəni irs abidələrinin dağıdılması və ölkədə genişmiqyaslı mina problemi barədə ətraflı məlumatlandırıb, bu mövzularla bağlı nəşrləri təqdim edib.

# Azərbaycanda yeni mükafat - Məbləği 50 min manat olacaq

***Azərbaycan Kitab Mükafatı 2026-cı ildə elan olunacaq. Bu barədə Mədəniyyət Nazirliyinin rəhbərliyinin gənc yazarlarla görüşündə nazir müavini Fərid Cəfərov bildirib. Mükafatla bağlı bəzi detallar da məlum olub.***

Belə ki, mükafat Prezident Fərmanı ilə təsdiq ediləcək. Mükafat laureatı bir nəfər müəyyənləşəcək. Qalibə 50 min manat pul mükafatı, diplom, döş nişanı təqdim ediləcək. Qalib olan kitab 3000 tirajla çap olunacaq, 2 ölkədə yayımlanacaq, 4 dilə tərcümə ediləcək və satışı təmin ediləcək. Satışdan gələn gəlir bütövlükdə müəllifə ödəniləcək.

Mükafata iki kateqoriya üzrə əsər qəbulu mümkün olacaq: nəsr (roman və hekayələr toplusu) və



poeziya (şeirlər və mənzum hekayələr).

Müsabiqəyə hər nəşriyyat 2 əsər, hər ədəbi orqan isə tamamilə çap etdiyi 1 əsər təqdim edə bilər.

Əsərlərin qiymətləndirilməsi bir neçə mərhələ üzrə aparılacaq. Birinci mərhələdə sentyabr ayında Ekspertlər Şurası tərəfindən 10 əsərdən ibarət uzun siyahı tərtib ediləcək. Noyabr ayında isə xüsusi komissiya 5 əsərdən ibarət qısa siyahını müəyyənləşdirəcək. Elə həmin ay isə Azərbaycan Kitab Mükafatının laureatı elan olunacaq.

Qısa siyahıya düşən digər 4 nəfərin hər birinə 2000 manat ödəniləcək.

Mükafatın final mərhələsi şou formatında olacaq, canlı yayımlanacaq. Səsvermə və nəticə ekranda görünəcək. Dünya şöhrətli yazarlar mərasimdə iştirak edəcək.

Qeyd edək ki, yeni təsis ediləcək Azərbaycan Kitab Mükafatı Azərbaycan Respublikasında elm və mədəniyyət xadimlərinə verilən Dövlət mükafatının ədəbiyyat kateqoriyasını əvəz edəcək.(APA)

## İsa Həbibbəyli: "Ramiz Mehdiyevin həqiqi üzvlük məsələsinə baxılacaq"

***Azərbaycan Milli Elmlər Akademiyası Ramiz Mehdiyevlə bağlı yaranmış vəziyyətə görə dərin təəssüf hissi keçirir.***

Bu sözləri APA-ya açıqlamasında AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli deyib. İsa Həbibbəyli bildirib ki, məhkəmə qərarından sonra Ramiz Mehdiyevin həqiqi üzvlük məsələsinə baxılacaq.

Qeyd edək ki, Bakı şəhəri Səbail rayon məhkəməsi Ramiz Mehdiyev barədə cinayət işi üzrə qərar qəbul edib. Qərara əsasən, məhkəmə xüsusilə ağır cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilmiş Ramiz Mehdiyev barədə verilmiş vəsatəti təmin edərək, 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib. O, Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

Xatırladaq ki, Ramiz Mehdiyev 1995-2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri, 2019-2022-ci illərdə isə AMEA-nın prezidenti olub.

46_27 IYUl-QARA.qxd 12/4/2025 9:06 PM Page 5



# Prezident "AzerGold"la bağlı sərəncam imzaladı



***Prezident İlham Əliyev "AzerGold" QSC-nin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında 22 fevral 2021-ci il tarixli sərəncamında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı dövlət başçısı sərəncam imzalayıb.

Sərəncama əsasən, Şuraya daxil olan Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyə şöbəsinin müdiri Vüqar Məcidli İnvestisiya layihələrinin və infrastrukturunun maliyyəsi şöbəsinin müdiri Mehman İsmayılovla, Azərbaycan İnvestisiya Holdinqinin Aktivlərin idarə olunması departamentinin Hasilat sənayesi və energetika şöbəsinin müdiri Rəşad İsmayılov isə Holdinqinin Baş icraçı direktorunun müavini Əli Cəfərovla əvəzlənib.

# Hikmət Hacıyev Qriqoryanla görüşəcək



***Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dekabrın 5-də Qətər Dövlətinin paytaxtı Dohaeda işgüzar səfərdə olacaq.***

"Unikal" xəbər verir ki, yüksək səviyyəli diplomatımız burada "Doha Forumu"nda iştirak edəcək.

Hikmət Hacıyev forum çərçivəsində Ermənistan Respublikasının Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla "Ermənistan-Azərbaycan davamlı sülhü: Vaşinqton sazişi və birgə gələcək" mövzusunda panel müzakirəsinə qatılacaq.

*Ağarza Elçinoğlu*

# Ceyhun Bayramov Britaniyanın dövlət naziri ilə görüşüb

***Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Nazirlər Şurasının Vyanada keçirilən 32-ci iclası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniyanın Avropa və Şimali Amerika, həmçinin Britaniyanın Dənizaşırı Əraziləri üzrə dövlət naziri Stefan Dauti ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN sosial mediada paylaşım edib. Görüşdə Azərbaycan-Böyük Britaniya əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri, o cümlədən siyasi dialoq, enerji təhlükəsizliyi, ticarət və investisiya sahələri müzakirə olunub.

Tərəflər həmçinin, regional proseslər barədə fikir mübadiləsi aparıb və Azərbaycan-Böyük Britaniya strateji tərəfdaşlığının inkişafı üçün mövcud imkanları dəyərləndiriblər.

# Merts və İlham Əliyev bir-birlərini səfərə dəvət etdilər

***Dekabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

"Unikal" xəbər verir ki, Fridrix Merts, ilk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edib.

Prezident İlham Əliyev ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Kansler Fridrix Merts dövlətimizin başçısını Almaniyaya səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev öz növbəsində Almaniya Kanslerini Azərbaycana səfərə dəvət edib. Fridrix Merts də dəvəti məmnunluqla qəbul edib.



# Azərbaycanda vəzifəli şəxs cəzalandırıldı

***Bərdə Kommunal Təsərrüfatı İdarəsinin direktoru Natiq Qasımov barəsində protokol tərtib edilib, vəzifəli şəxs qismində 2 min 500 manat məbləğində cərimə olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Ekoloji Təhlükəsizlik Xidməti məlumat yayıb.

Belə ki, Bərdə rayonu ərazisində yerləşən tullantı poliqonunda tullantıların yandırılması ilə bağlı mediadan daxil olan şikayət əsasında 9 saylı Regional



Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları tərəfindən araşdırma aparılıb və fakt təsdiqini tapıb.

İdarənin rəisi Oqtay Şahmurov bildirib ki, yanğın məişət tullantılarının mövcud qanunvericiliyin tələb və qaydalarına uyğun idarə olunmaması və qabaqlayıcı tədbirlərin görülməməsi səbəbindən baş verib.

Poliqonda tullantıların düzgün idarə olunmasının təmin edilməsi və gələcəkdə belə halların təkrarlanmaması məqsədilə Bərdə Kommunal Təsərrüfatı İdarəsinə "Ekoloji tələb" verilib.

Eyni zamanda mövcud vəziyyətlə bağlı Bərdə Rayon İcra Hakimiyyətinə müraciət olunub.

# Azərbaycan və Ermənistan ikitərəfli münasibətlərdə dinc, sabit dövrü yaşayır

***Azərbaycan və Ermənistan hazırda ikitərəfli münasibətlərdə ən dinc və sabit dövrü yaşayırlar.***

"Report"un Avropa bürosunun məlumatına görə, bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Vyanada ATƏT Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 32-ci iclasında çıxışı zamanı bildirib.

C.Bayramov qeyd edib ki, hər iki tərəf müxtəlif istiqamətlərdə - hökumət, parlament səviyyələrində və vətəndaş cəmiyyəti səviyyəsində - sülh prosesinə əlavə təkan vermək məqsədilə konkret tədbirlərin həyata keçirilməsi üçün zəruri addımlar atır.

Nazir onu da deyib ki, "Tramp Marşrutu" (TRIPP - Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçməli olan 42 kilometrlik hissəsi) layihəsinin vaxtında həyata keçirilməsi Cənubi Qafqaz regionu üçün birinci dərəcəli əhəmiyyətə malikdir.

C.Bayramov vurğulayıb ki, bu multimodal marşrut dəmir yolu, avtomobil yolu və digər kommunikasiyaları əhatə edəcək. "TRIPP Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməli, həmçinin Ermənistan üçün fayda gətirməlidir. Dəfələrlə bəyan edildiyi kimi, kommunikasiyaların açılması (regionda - red.) yalnız Ermənistan və Azərbaycan arasında sülhün dayanıqlığının təmin edilməsi ilə məhdudlaşmır, həm də daha böyük miqyasda əhəmiyyətli faydalar gətirir", - Azərbaycan XİN başçısı bildirib.



Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Eldar Mansurovun oğluna yeni vəzifə verildi



***İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun İdarə Heyətinə sədr təyin olunub.***

"Unikal"ın məlumatına görə, bu vəzifəyə Ülvi Mansurov təyinat alıb. O, bu təyinatadək "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru vəzifəsində çalışıb.

Qeyd edək ki, Ü.Mansurov Xalq artisti Eldar Mansurovun oğludur.

*Murad İbrahimli*

# "İrəvan Qarabağla bağlı sənədləri yaymaqla etik normaları pozub" - Zaxarova



***İrəvan maraqlı tərəflərlə məsləhətləşmədən ATƏT-in işçi sənədlərini və həmsədr ölkələrin başçılarının yazışmalarını dərc etməklə etik normaları pozub.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

"Əgər onlar bunu artıq ediblərsə, deməli, bu sənədlər İrəvanda irəli sürülən tezislərdən fərqlənir. ATƏT və BMT sənədləri açıq şəkildə sübut edir ki, Rusiya 30 ildir ki, həmsədr ölkə kimi bütün səylərini Qarabağ münaqişəsinin siyasi və diplomatik yolla həllinə sərf edib. Biz həmişə bu barədə danışmışıq, indi isə bu sənədlərdən aydın görünür", - deyə diplomat qeyd edib.

Xatırladaq ki, bundan bir gün əvvəl rəsmi İrəvan Qarabağla bağlı bir sıra danışıqlar paketini yaymışdı.

*Ağarza Elçinoğlu*

# Prezident Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq ilk növbədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırdı.

Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğuladı və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxundu. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu dedi və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan və İraq hökumətləri arasında Birgə Komissiyanın 4-cü iclası keçirilib

***Ötən gün Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın 4-cü iclası keçirilib.***



"Unikal" xəbər verir ki, iclasda iştirak məqsədilə Birgə Komissiyanın İraq Respublikası tərəfindən həmsədri, bu ölkənin rabitə naziri Hayam Al-Yasirinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.

Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən həmsədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev İraq nümayəndə heyətini salamlayaraq bildirib ki, sıx tarixi, dini və mədəni əlaqələrə malik iki dost ölkə olan Azərbaycan və İraq arasında müxtəlif sahələr üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur.

Rəşad Nəbiyev ölkəmizin ötənilki makroiqtisadi göstəriciləri və iki ölkə arasında ticarət dövriyyəsinin həcmi barədə məlumat verib, Birgə Komissiyanın tərəflər arasında əməkdaşlığın genişləndirilməsi üçün səmərəli platforma olduğunu vurğulayıb.

Eyni zamanda qeyd olunub ki, Azərbaycan - İraq Biznes Şurasının fəaliyyətinin aktivləşdirilməsi iki ölkə arasında ticarət əlaqələrinin inkişafına töhfə verə bilər.

Rəşad Nəbiyev, həmçinin regionda sülh quruculuğu ilə bağlı cari vəziyyət, habelə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan yenidənqurma və bərpa işlərindən danışıb. Diqqətə çatdırılıb ki, işğaldan azad edilən ərazilər Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində yenidən qurulur və bu region "yaşıl enerji" zonası elan olunub.

İclas zamanı iqtisadiyyat, sənaye, ticarət, qarşılıqlı investisiyalar, neft və qaz, rəqəmsal inkişaf, elm və təhsil, mədəniyyət, turizm, gənclər və idman sahələrində əməkdaşlıq imkanlarına dair geniş müzakirələr aparılıb.

İclasın sonunda Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın 4-cü iclasının Protokolu imzalanıb.

Məlumat üçün bildirək ki, Birgə Komissiya 2010-cu il noyabrın 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş"ə əsasən yaradılıb.



# Ceyhun Bayramov Hakan Fidanla görüşdü

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 3 dekabr 2025-ci il tarixində ATƏT-in Nazirlər Şurasının 32-ci iclası çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə görüşüb.***

Xarici İşlər Nazirliyindən "Unikal"a bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə arasında möhkəm dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə inkişafı məsələləri, habelə geniş bölgədə mövcud təhlükəsizlik vəziyyəti, regional sülh və sabitliyin təmin olunması istiqamətində görülən tədbirlər müzakirə olunub.

Bu çərçivədə iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə davam etməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər iqtisadiyyat və ticarət, energetika və nəqliyyat-kommunikasiya layihələri, o cümlədən regional bağlantı təşəbbüslərinin reallaşdırılması ilə bağlı perspektivləri nəzərdən keçiriblər.

Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini qeyd edərək, Azərbaycan və Türkiyənin bir-birini qarşılıqlı şəkildə dəstəkləməsinin regional əməkdaşlığa müsbət töhfə verdiyini vurğulayıblar.

Nazirlər həmçinin digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Emin Əmrullayev təltif edilən alimlərlə bir arada

***Dekabrın 3-də elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ölkə başçısının müvafiq sərəncamına əsasən Azərbaycan elminin inkişafında xidmətlərinə görə təltif edilən bir qrup alimlə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş zamanı nazir Emin Əmrullayev son illərdə elmin inkişafı istiqamətində atılan əsas addımlar, aparılan struktur islahatları, elmi fəaliyyətin stimullaşdırılması, gənc tədqiqatçıların dəstəklənməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Daha sonra nazir alimlərin hər birini təbrik edərək onlara dövlət təltiflərini təqdim edib.

Alimlər də öz növbələrində göstərilən etimada və əməyə verilən dəyərə görə təşəkkürlərini bildirib, elmin inkişafına mane olduğunu düşündükləri məsələlərə diqqət çəkib, mövcud proseslərlə bağlı fikirlərini bölüşüblər. Onlar görülən işlərin əhəmiyyətini vurğulayıb və bu cür görüşlərin mütəmadi keçirilməsinin önəmini qeyd ediblər.

# Abbas Araqçi Azərbaycana səfər edəcək

***İran xarici işlər naziri Abbas Araqçi Azərbaycana səfər edəcək.***

Bu barədə APA-ya İranın Azərbaycandakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, İran XİN rəhbərinin Azərbaycana səfəri gələn həftəyə planlaşdırılır.

Səfər çərçivəsində Abbas Araqçi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla danışıqlar aparacaq, görüş zamanı iki ölkə arasında münasibətlərlə bağlı fikir mübadiləsi aparılacaq.

46_27 IYUI-QARA.qxd 12/4/2025 9:06 PM Page 7





## Naxçıvanda deputatlar üçün qaydalar sərtləşdirilir

***Naxçıvan Ali Məclisinin 5 iclasında üzrsüz səbəbdən iştirak etməyən deputatın mandatına xitam veriləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"nin 51.5-ci maddəsində dəyişiklik edilib.

Dəyişikliyə əsasən, deputatın üzrsüz səbəbdən iştirak etmədiyi iclasların sayı 10-dan 5-ə endirilib.

Qeyd edək ki, bundan əvvəl "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"nin 51.5-ci maddəsi aşağıdakı kimi idi:

Ali Məclisin sədri Ali Məclisin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Ali Məclisin 10 iclasında üzrsüz səbəbdən iştirak etməyən Ali Məclisin deputatı barəsində İntizam komissiyasına təqdimatla müraciət edir. İntizam komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Ali Məclisin deputatı barəsində deputat səlahiyyətlərinin itirilməsi intizam tədbirinin tətbiq edilməsi haqqında rəy qəbul edir və Ali Məclisin müzakirəsinə çıxarır.

Bu məsələyə Ali Məclisin növbəti iclasında səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan deputatın iştirakı ilə baxılır. Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. İclasda iştirak edən Ali Məclisin deputatları yalnız deputat səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, İntizam komissiyasının üzvlərinə suallar verə bilər və deputatın səlahiyyətlərinin itirilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Ali Məclisin deputatının səlahiyyətlərinin itirilməsi barədə Ali Məclisin qərarı azı 23 səs çoxluğu ilə qəbul edilir.

## ABŞ Dövlət Departamentindən Azərbaycanla bağlı açıqlama




***Həm ABŞ, həm də Mərkəzi Asiya ölkələri Ermənistan və Azərbaycan arasında Trampın Beynəlxalq Sülh və Rifah Təşəbbüsü (TRIPP) tərəfindən dəstəklənən davamlı sülhün əldə olunmasında maraqlıdırlar.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidməti açıqlayıb.

Bəyanatda bu yaxınlarda C5+1 regional diplomatik platformasının 10 illiyinin qeyd edildiyi vurğulanır: "Vaşinqtonda keçirilən C5+1 görüşləri zamanı biz Ermənistan və Azərbaycanın regional əməkdaşlıq və tərəqqi imkanlarını genişləndirmək səylərini vurğuladıq. Biz bu imkanları artırmaq üçün birgə işləmək niyyətindəyik".

***Ağarza Elçinoğlu***

# "Mənzil bazarında qiymətlər bahalaşdıqca, əlçatanlıq azalır"

## Ramil Osmanlı: "Bütün amillərə baxmayaraq, daşınmaz əmlak bazarında qiymət artımları davam edir"

***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, MİDA-nın güzəştli mənzillərinin satışı ilə bağlı alternativ variant üzərində işlənməsindən, hazırda əmlak bazarında qiymətlərin necə dəyişdiyindən, növbəti ildə mənzil qiymətlərinin artıb ya azalacağından və sənədsiz evlərin sənədləşdirilməsinin hansı üstünlüklər yaradacağından danışıb.***

***-Ramil müəllim, Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) güzəştli mənzillərin növbəti onlayn satışını keçirib. Buna baxmayaraq, xeyli narazılıqların olduğunu görürük. Belə ki, istifadəçilər satış başlayandan texniki problemlərlə üzləşdiklərini qeyd ediblər. Sizcə, güzəştli mənzillər üçün alternativ seçim imkanları yaradıla bilərmi?***

-Bundan əvvəl ictimai nəzarət kifayət qədər təmin olunurdu. Amma bu dəfə MİDA buna ehtiyac görmədi. Hüquq-mühafizə orqanları bu məsələyə nəzarət edir. Buna baxmayaraq neqativ hallar ortaya çıxır. Əgər elektron platforma bu məsələ ilə bağlı müsbət nəticələrdən daha çox mənfi nəticələrlə yadda qalırsa, Mənzil İnşaatı Dövlət Agentliyi başqa alternativ variant haqqında fikirləşməlidir. Prosesin şəffaflığının təmin olunması, bu sahə ilə bağlı elektron platformalardan istifadəni bacarmayan şəxslərin prosesdən kənarda qalmaması, onların da haqlarının təmin olunması üçün alternativ variant üzərində işlənməlidir.

***-İnsanların hər zaman müzakirə etdiyi məsələlərdən biri də əmlak qiymətləri ilə bağlıdır. Hazırda daşınmaz əmlak bazarında qiymətlər necə dəyişir?***

-Son iki ildə müşahidələr göstərir ki, əmlakların satışında azalmalar var. Ötən illə müqayisədə nəticələr göstərir ki, bu il əmlakların alınmasında azalma olacaq. Həmçinin, 2024-cü illə müqayisədə təxminən 10% və ya bir az artıq azalma var. Bunun səbəbləri bəllidir. Mənzil bazarında qiymətlər bahalaşdıqca, əlçatanlıq azalır. Bu da təbii ki, mənzil alıcılarının sayının azalmasına gətirib çıxarır. 2023-cü ildə Rusiyadan, Ukraynadan və digər qonşu ölkələrdən daxilolmalar hesabına rəqəmlər pik həddə çatmışdı. Amma son iki ildə azalmalar müşahidə edirik. Qarşıdakı ildə prosesin necə cərəyan edəcəyini, azalma və ya artım olacağını indidən demək bir qədər çətindir. Bütün amillərə baxmayaraq, daşınmaz əmlak bazarında qiymət artımları davam edir. Doğrudur, 2025-ci ilin qiymət artımları əvvəlki illərlə müqayisədə daha stabildir. Hər bir halda qiymət artımı var və davam edir.

***-Siz də qeyd etdiniz ki, qiymət artımları davam etsə də, daşınmaz əmlakın alqı-satqısında azalma var. Növbəti ilin iqtisadi vəziyyətini nəzərə alsaq (neft qiymətlərinin azalacağı və s. proqnozlar səsləndirilir) əmlak qiymətlərində hansı dəyişikliklər olacaq?***

-Qiymət azalması gözlənilmir. Dövlət büdcəsində tikinti və infrastruktur xərcləri üçün ayrılan vəsaitlərin həcmində nisbi artım var. Bu onu deməyə əsas verir ki, şəhərsalma prosesi dayanmayıb, davam edir. Neft qiymətində azalmalar olsa belə hökumət iqtisadiyyatın qeyri-neft sektorunda əsas paya sahib olan daşınmaz əmlak bazarının zəifləməsində maraqlı deyil. Bu prosesdə investisiya axınının təmin olunması və bu istiqamətin daha da inkişaf etdirilməsi ilə bağlı tədbirlər üzərində işləyir. Amma nəzərə almaq lazımdır ki, gələn il üçün iqtisadi göstəricilərə dair indidən proqnoz vermək bir qədər çətindir. Bu il daşınmaz əmlak bazarı üzrə əməliyyatların həcmini nəzərə alsaq, alqı-satqıda azalmalar gözlənilir. Təəssüf ki, bizim bazar tam olaraq makroiqtisadi amillərdən, tələb-təklifdən asılı olmadığına görə, tələb düşsə də, qiymət artmaqda davam edir. Burada təbii ki, subyektiv amillər var. Yeni tikililərdə qiymətlər köhnə tikililərə nisbətən daha çox artır. Bu da ondan irəli gəlir ki, bu istiqamətdə qiymət artımına bazar nəzarət etmir. Qiymət siyasətinə diqtə edən tərəf mənzil tikinti kooperativlərinin, investorların özləridir. Onlar dövriyyə vəsaitləri hesabına fəaliyyət göstərmirlər. Gəlir olmasa, mənfəət az olsa, qiyməti azaltmaqda maraqlı deyillər. Burada inzibati təsirləri də qeyd etməliyik. Müşahidələr göstərir ki, müəyyən inzibati təsirlər hesabına bazarda qiymət artımına təsir göstərən səbəblər var. Bütün istiqamətlərdə daha çox ilkin mənzil bazarından yaranan qiymət artımını müşahidə edirik.

***-Hazırda paytaxtda köhnə binaların söküntüsü davam edir. Bu işlərin növbəti ildə də davam edəcəyi gözlənilir. Bu addımlar köhnə tikililərin qiymətinə necə təsir göstərəcək?***



-Söküntü işləri davam edir. Bakı şəhərinin Baş planına və 2025-2030-cu illərdə sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq şəhərsalma ilə bağlı tədbirlərin inkişafı nəticəsində köhnə yaşayış fondunun sürətlə azalması tendensiyası davam edəcək. Təbii ki, köhnə tikililər daşınmaz əmlak bazarının bir hissəsidir. Nə qədər köhnə olsa da, orada qiymət artımları davam edir.

***-Ən aktual məsələlərdən biri də sənədsiz evlərin sənədləşdirilməsi ilə bağlıdır. Artıq bir müddətdir bu istiqamətdə müzakirələr gedir. Bu işlərin nə zaman yekunlaşdırılacağı gözlənilir?***

-Hər il deyirik ki, bu il yəqin sənədləşmə məsələsi ilə bağlı sonuncu il olacaq, bu istiqamətdə addımlar atılır, qərarla bağlı istəyə yaxınlaşırıq və s. Amma hər il daxil olur və bitir, proses isə eyni yerdə dayanıb. Sənədləşmə məsələsi kifayət qədər ciddi nəticələrə gətirib çıxara bilər.Bunun bir tərəfdən hüquqi, digər tərəfdən isə iqtisadi baxımdan geniş müsbət təsirləri ola bilər və insanların qeydiyyat probleminin həll olunmasına öz töhfəsini verə bilər. Həmçinin, daşınmaz əmlakın qeydiyyatı, daşınmaz əmlak üzərində aparılan əməliyyatlar, notariat və digər əməliyyat rüsumlarını da nəzərə alsaq, iqtisadi baxımdan səmərəli hesab olunan addımlardır. Düşünürəm ki, bu istiqamətdə qərar qəbul olunmalıdır. İllərlə bu istiqamətdə proses getsə də, görünən odur ki, məsələni tam şəkildə həll etmək mümkün olmayıb. Nə sənədsiz evlərin sənədləşdirilməsi, nə də onun qarşısının alınması istiqamətində problemi həll etmək mümkün olmadı. Bu mənada hesab edirəm ki, bu qərar qəbul olunmalıdır.

***Anar Kəlbiyev***

46_27 IYUI-QARA.qxd 12/4/2025 9:08 PM Page 8



# MİDA-dan növbəti narazılıq: Güzəşt siyasətinə kölgə salınır, yoxsa...

***Xəbər verdiyimiz kimi, Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) güzəştli mənzillərin satışı üzrə elan olunmuş seçim mərhələsi keçirilib. Lakin bu dəfə də güzəştli şərtlərlə mənzil sahibi olmaq istəyənlərin böyük əksəriyyəti prosesdən narazı qalıb. Belə ki, elektron sistem üzərindən keçirilən mənzil seçimi mərhələsinin bir dəqiqə çəkdiyi bildirilsə də, istifadəçilər ilk 10 saniyədən saytın error verdiyini bildiriblər.***

Texnobloqer Fərid Pərdəşünas da satışların 1 dəqiqəyə başa çatdığını yazmışdı. Onun sözlərinə görə, bir çox istifadəçilər satış zamanı texniki problemlərin yarandığını bildiriblər. Ekspertin paylaşımının rəy bölümündə də onlarla vətəndaş seçim edə bilmədiklərini qeyd edirdilər, hətta prosesin video görüntülərini də yayanlar var idi. ”MİDA alıcıları satış başladığı zaman ciddi texniki problemlərlə üzləşiblər. Serverlərin eyni anda yüklənməsi səbəbindən bir çox istifadəçi xəta ekranı ilə qarşılaşıb”, - deyən texnobloqer Fərid Pərdəşünas qeyd edib ki, paralel olaraq bəzi istifadəçilərin sorğuları isə emal olunub. Eyni anda serverə daxil olan sorğuların çoxluğu platformaya girişdə çətinliklər yaradıb. İstifadəçilər seçimlərin növbəti addımına keçid edə bilməyiblər.

“Bəzi istifadəçilərin xəta ilə üzləşməsi və bəzilərinin seçim edə bilməsi texniki cəhətdən mümkün haldır. Amma bu, ədalətli yarışın təşkili demək deyil. Vətəndaşlar bərabər imkanlarla satışda iştirak etməlidirlər. Düşünürəm ki, artıq Milli Məclis və aidiyyəti qurumlar bu qanuna düzəlişlər təklif etməli və güzəştli mənzillərin sürət hesabına yarış formasında verilməsi dayandırılmalıdır. Ən ədalətli yanaşma istifadəçilərin böyük bir stadionda toplanıb, canlı püşkatma ilə seçimdə iştirakını təmin etməkdir”, - deyə o əlavə edib.

### “Bu işi görə bilmirsinizsə...” - Deputat MİDA-ya səsləndi

Məsələ ilə bağlı ”Unikal”a açıqlama verən Milli Məclisin deputatı Fazil Mustafa bildirib ki, MİDA-nın işi insanların sosial problemlərinin ən vacib istiqaməti olan mənzil məsələsini həll etməkdir: ”Təəssüf ki, illərdir bu istiqamətdə narazılıqlar səngimir. Sadə texniki proseduru həyata keçirməkdə həmişə müəyyən problemlər ortaya çıxmağa başlayır. Buna yola vermək olmaz, çünki söhbət bir dövlət agentliyindən gedir. Xüsusilə də, MİDA müəyyən həssas həyat şərtlərinə malik olan insanlar üçün şərait yaratmalıdır. Güzəştli mənzil almaq istəyən vətəndaşların əksəriyyəti başqa cür imkanı olmadığına görə dövlətin yaratdığı imkandan yararlanmağa çalışırlar. Baş verən problemlər bu etibarı bir qədər zədələyir. Bu, qətiyyən yolverilməz bir addımdır. Məncə, bu formada mənzil probleminin həlli də arzuolunan səviyyədə deyil. Pilot layihələr bundan daha əlverişli idi, çünki, vətəndaşların konkret olaraq probleminin həllinə birbaşa kömək edən variantlardan biri idi. O, dayandırıldı”, - deyə o qeyd edib.

Parlamentari vurğulayıb ki, MİDA tərəfindən inşa edilən mənzillərin keyfiyyət məsələsinə də xüsusi diqqət yetirilməlidir: ”Elə etməliyik ki, dövlətin vətəndaşa nə qədər böyük dəstək verdiyi aydın şəkildə görünsün. Bu, həm də dövlətin vətəndaşlar qarşısında öhdəliyidir. Ona görə də, texniki nasazlıq bu məsələdə bəhanə kimi göstərilə bilməz. Dövlət sizə (MİDA-nı nəzərdə tutur - red.) bir iş həvalə edib. İşi keyfiyyətli formada həyata keçirməlisiniz. Əgər işi görə bilmirsizsə, o zaman bu məsələ ciddi nəzarətə alınmalıdır. Onların fəaliyyətlərini dəqiq araşdırıb qısa müddətdə aşkara çıxarmaq lazımdır ki, vətəndaşın bu instituta olan etibarı itməsin”.




### Ekspert: “Hazırkı sistemin mahiyyətində ədalətsizlik var”

Məsələ ilə bağlı Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz açıqlama yayıb. O bildirib ki, istifadəçilər satış başlayan anda texniki problemlərlə üzləşdiklərini, ekrana xəta xəbərdarlığının çıxmasını, növbəti mərhələyə keçidin mümkün olmamasını bildiriblər: ”MİDA əvvəlki satışlardan fərqli olaraq bu dəfə ictimai nəzarətin təşkilinə önəm verməyib. Bu satışda hələlik ən diqqətçəkən məqam odur ki, MİDA satışın baş tutması ilə bağlı heç bir rəsmi açıqlama verməyib. Nə baş verməsi, hansı qurumların prosesdə iştirak etməsi, ilk satışın hansı müddətə baş tutması haqqında , bir daha xatırladıram ki, əvvəlkilərdən fərqli olaraq, bu dəfə açıqlama verilməyib. Adətən MİDA satış başa çatan anda ilkin açıqlamalar verirdi. Qanunvericilikdə kritik qurumların siyahısı qapalı məlumat olsa da, kritik infrastrukturun tərifindən belə anlaşılır ki, MİDA bu infrastrukturun subyektidir. Belə olan halda qurum, onun informasiya sistemi DTX və XRİTDX -nin nəzarət perimetrinə daxil olur. Ümid edək keçirilən onlayn satışın etibarlılığı ilə bağlı da MİDA, DTX, XRİTDX və digər əlaqəli qurumlar tərəfindən araşdırmalar aparılacaq və ağlabatan bir açıqlama veriləcək. Xatırladıram ki, 3 il öncə məhz DTX -nin müdaxiləsindən sonra satışın nəticələri ləğv edilmişdi. Məhz bundan sonra MİDA sistemində bir xeyli təkmilləşmələr aparılmış, ilkin mənzil satışın müddəti xeyli artmışdır. Əgər 2022-ci ilədək, Botların meydan suladığı vaxtlar ilkin mənzil seçimi 4-10 saniyə müddətində baş tutmuşdusa, DTX nəzarəti gücləndiriləndən sonra bu müddət 30 saniyə ətrafında olurdu . Bir daha qeyd etmək istərdim ki , proses nə qədər insan amili olmadan, texnologiyalar vasitəsilə həyata keçirilsə də, bəri başdan mahiyyətində bir ədalətsizlik var. Rəqəmsal bacarıqları yetərli olmayanların bu prosesdə uduş şansı elə öncədən sıfra bərabərdir. Odu r ki, güzəştli mənzillər üçün daha ədalətli alternativ seçim imkanları yaratmaq çox vacibdir. Bu istiqamətdə təkliflərimizi MİDA-ya təklif etmişik”.

### MİDA-dan növbəti narazılıq: Güzəşt siyasətinə kölgə salınır, yoxsa...

Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri - Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi, Sumqayıt Yaşayış Kompleksi, Lənkəran Yaşayış Kompleksi, Binəqədi Yaşayış Kompleksi, Şirvan Yaşayış Kompleksi və Yevlax Yaşayış Kompleksində yerləşən ümumilikdə 627 mənzilin ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə “Elektron hökumət” portalı (www.e-gov.az) üzərindən “Güzəştli mənzil” sistemi vasitəsilə satışı prosesinə 03.12.2025-ci il tarixində saat 11:00-da başlanılmış və mənzillərin seçimi müvafiq qaydalara uyğun olaraq şəffaf şəkildə həyata keçirilmişdir.

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin birgə məlumatında deyilir.

”İlk mənzil seçimi 21-ci saniyədə baş tutub. Bu saata olan məlumata görə seçilmiş 627 mənzilin 584-ü üzrə vətəndaşların ərizələri elektron qaydada imzalanaraq uğurla təqdim edilmişdir.

Mənzillərin seçimi prosesinə Mənzil İnşaatı Dövlət Agentliyinin inzibati binasında yaradılmış operativ qərargahda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və ”AzInTelecom” MMC-nin və media nümayəndələrinin iştirakı ilə nəzarət edilmişdir. Mənzil seçimi prosesinə nəzarət zamanı müxtəlif kiberhücum cəhdləri müşahidə edilmiş, lakin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən tətbiq edilmiş təhlükəsizlik mexanizmlərinin işə düşməsi ilə həmin cəhdlərin qarşısı uğurla alınmışdır. Vətəndaşlar ”Güzəştli mənzil” sistemindən yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada və təlimata uyğun istifadə etməli və onun işinə qanunsuz kibermüdaxilə cəhdlərindən çəkinməlidirlər. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən tətbiq edilən informasiya təhlükəsizliyi mexanizmləri sayəsində bu qəbildən olan cəhdlər operativ şəkildə aşkarlanır, neytrallaşdırılır və sistemin təhlükəsiz fəaliyyəti daimi nəzarətdə saxlanılır.

Seçim mərhələsi başa çatdıqdan sonra isə Mənzil İnşaatı Dövlət Agentliyinin nümayəndəsi “Güzəştli mənzil” sistemində aparılan təkmilləşdirmə işləri və xüsusi proqram təminatları vasitəsilə mənzillərin daha sürətli seçilməsinin qarşısının alınması məqsədilə seçim prosesinə tətbiq edilən əlavə təhlükəsizlik tədbirlərini əyani olaraq nümayiş etdirmişdir.

“Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi isə 9 dekabr 2025-ci il tarixində saat 11:00-da başlayacaq və 12 dekabr 2025-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Qaydaya əsasən satış müddətində seçilmiş bir mənzil həmin elan çərçivəsində daha iki şəxs tərəfindən də ardıcıl olaraq gözləmə qaydasında seçilə bilər. Bunun üçün, istifadəçi müəyyən edilmiş müddət ərzində “Güzəştli mənzil” sistemində elektron kabinetində müvafiq bölməyə daxil olaraq ödəniş üsulu, mənzil seçimi üsulu və layihəni seçərək mənzili axtarır. Mənzilə baxış mərhələsində bir neçə istifadəçi eyni mənzilə baxış keçirə bilər və “Təsdiq et” düyməsini sıxan ilk 2 şəxs həmin mənzili gözləmə qaydasında seçə bilər. Daha sonra istifadəçi gözləmə qaydasında seçdiyi mənzilin ərizəsini imzalayıb təqdim etməlidir. Əgər hər hansı bir səbəbdən mənzil onu seçmiş şəxs tərəfindən əldə edilmədikdə, ilk olaraq həmin mənzil gözləmə qaydasında birinci sırada seçmiş şəxsə təklif ediləcək. Eyni qaydada, əgər mənzil hər hansı bir səbəbdən birinci sırada seçmiş şəxs tərəfindən də əldə edilməsə, həmin mənzil gözləmə qaydasında ikinci sırada seçmiş şəxsə təklif ediləcəkdir.

Qeyd edək ki, 03.12.2025-ci il tarixində seçilmiş mənzillər barədə statistik məlumatlar ictimaiyyətə təqdim olunacaq”, - deyə rəsmi açıqlamada qeyd olunur.

***Murad İbrahimli***



## "Ola bilsin ki, şeyxin Ramiz Mehdiyevlə münasibətləri olub" - Qardaşı

***"Ola bilsin ki, Allahşükür Paşazadənin Ramiz Mehdiyevlə münasibətləri olub. Mənim heç bir halda onunla (red.Ramiz Mehdiyevlə) əlaqəm olmayıb. Heç vaxt görüşməmişik də".***

"Unikal" xəbər verir ki, bunu şeyxin qardaşı, deputat Cavanşir Paşazadə Modern.az-a müsahibəsində bildirib.

"Allahşükür Paşazadə şeyxülislam olub. Hər ikisi müəyyən vəzifələr yerinə yetiriblər. Ola bilsin ki, münasibətləri olub. Amma bu münasibətlər dövlətlə bağlı məsələlərdə olub. Başqa bir mövzu ola bilməz", - deputat vurğulayıb.

C.Paşazadə həmçinin şeyxin adının müxtəlif biznes sahələrində çəkilməsi məsələsinə də aydınlıq gətirib: "Hansı bizneslə məşğul ola bilərik ki? Bu boyda dövlət qurmuşuq, belə bir şey olsa, dövlət buna əsla göz yummaz. Şeyx ölkəni dünyanın dörd bir yanında təmsil edib. Belə hal olsaydı, onu nəinki Azərbaycanı təmsil etməyə, ölkədən çıxmağa da qoymazdılar.

Hələ 20 il əvvəl deyirdilər ki, guya kartof-soğan biznesi ilə məşğulam. Sonra bir ara xalça biznesində adım hallandı. İndi görürəm ki, daha yer qalmayıb. Kimin yeri itir, mənim adımı verirlər. Bu yaxınlarda televiziyadan zəng etdilər ki, sizin restoranınızda işləyən 5 nəfər şikayətçidir. Mənim hansı restoranım var ki? Amma müxbir deyir ki, bizə məlumat veriblər, sizin restoranınızdır, bu da gedib inanır. Hələ bir ara gömrükdən mal keçirmək isteyirdilər, mənim adımı verirdilər. Biz artıq belə şeylərə öyrəşmişik".

"Bir qızım, iki oğlum var. Bir oğlum polisdə, yüksək rütbədədir. Qızım filoloqdur, müəllim işləyir. Digər oğlum isə İstanbulda yaşayır, orada işləyir. Əvvəl burada məhkəmədə işləyirdi. Daha sonra Böyük Britaniyaya gedib dəniz brokerliyi sahəsində təhsil aldı, orada bir müddət logistika ilə məşğul olandan sonra İstanbulda öz şirkətini yaratdı.

Nəvələrimin hamısı oxuyub. Onlardan üçü İstanbulda yaşayır, iki nəvəm isə təhsilləri ilə bağlı İngiltərədədirlər. Bir nəvəm İstanbulda oxuyub, indi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında sektor müdiri işləyir. Digərləri balacadır. Ən balaca nəvəmin adı Esmaməlәkdir. Gündə gəlib mənə yalan danışır (gülür)", - parlamentari ailəsi ilə bağlı sualları cavablandırarkən deyib.

Xatırladaq ki, bir müddət əvvəl "Unikal"da Ramiz Mehdiyevlə Allahşükür Paşazadənin Xırdalanda İlahiyyat Universitetinin inşası üçün nəzərdə tutulan yeri öz aralarında bölüşdürmələri ilə bağlı xəbər yayımlamışdıq.

# Rusiyada böyük biznesi olan sabiq deputatın oğlundan Bakıda maraqlı gediş

***Fövqəladə Hallar Nazirliyi (FHN) Qasımov Taleh Əsabil oğlunun sifarişi əsasında Bakı şəhəri, Yasamal rayonu, Murtuza Muxtarov küçəsi, giriş 211A ünvanında inşa olunan obyektin istismarına icazə verib. Tikinti sahəsi 184,1 kvadratmetr olan bina 1 mərtəbədən ibarətdir.***

Qeyd edək ki, FHN binaya 24 iyul 2025-ci il tarixli 08231 nömrəli istismara hazırlıq rəyi verib.

Məlumat üçün bildirək ki, iaşə obyektinin sifarişçisi olan Taleh Qasımov sabiq millət vəkili Əsabil Qasımovun oğludur.

Xatırladaq ki, Taleh Qasımov Rusiyanın Kislovodsk şəhərində fəaliyyət göstərən "İstoçnik" sanatoriyasının sahibi olan "Sanatoriya İstoçnik Kislovodsk" şirkətinin təsisçisidir. Onun şirkətdəki payı 80%-ə bərabərdir. Taleh Qasımov eyni zamanda Stavropol diyarında qeydiyyatda olan "Ekspo" (100%) və Moskva şəhərində qeydiyyatda olan "Biznes-Çentr Bernikov" şirkətlərinin də (50%) təsisçisidir.



T.Qasımovun atası Ə.Qasımovla bağlı bir müddət öncə Azərbaycan mediasında ilginc iddia irəli sürülüb. "Musavat.com" yazıb ki, Ramiz Mehdiyevin ətrafında araşdırmalar getdikcə yeni adları, yeni əlaqələri üzə çıxarır. Bu zəncirin əsas həlqələrindən biri də Azərbaycanın sabiq Milli Məclis sədri Oqtay Əsədov, digəri isə keçmiş deputat və iş adamı Əsabil Qasımovdur. Hər iki şəxs barəsində illərdir dövriyyədə olan məlumatlar bir istiqamətdə birləşir: Rusiya ilə dərin maliyyə və biznes əlaqələri. Və indi bu əlaqələrin sırf iqtisadi deyil, siyasi məqsəd daşıdığı ehtimalı üzərində dayanılır. Yenə adıçəkilən saytın iddiasına görə Mehdiyev komandası 2010-cu illərin sonlarından etibarən ölkədə güc mərkəzlərinin dəyişəcəyini nəzərə alaraq, "qoruyucu iqtisadi baza"nı məhz Rusiyada formalaşdırmağa başlayıb. Bu illər ərzində Azərbaycan büdcəsindən çıxan külli miqdarda vəsaitlər müxtəlif tender və investisiya mexanizmləri ilə Rusiyaya daşınıb. İddialara əsasən, həmin pulların bir hissəsi Moskva və Sankt-Peterburqda tikinti, enerji və logistika sektoruna yönəldilib. Burada başlıca fiqurlar kimi Oqtay Əsədovun yaxın ailə üzvləri, həmçinin Əsabil Qasımovun biznes tərəfdaşları göstərilir. Lakin bu iddialarla bağlı aradan keçən bir ay müddətində nə sabiq spiker, nə də keçmiş deputat hər hansı münasibət bildirməyiblər.

"Unikal"ın əldə etdiyi məlumata görə, Əsabil Qasımov ilin böyük hissəsini Rusiyada keçirir və bu ölkədə on milyonlarla dollarlıq sərmayə qoyaraq yaratdığı, son 7-8 ildə isə əhəmiyyətli böyütdüyü biznesini birbaşa özü idarə edir.

Xalq arasında "un kralı" kimi tanınan Ə.Qasımov uzun illər ərzində ölkənin ərzaq təhlükəsizliyinə yönəlik ən strateji sahələrdən birində - taxıl və un bazarında hökmranlıq etmiş şəxs kimi təqdim edilir. O, İmişli rayonunun Qaralar kəndində doğulub, illərlə dövlət idarələrində, daha sonra Milli Məclisdə təmsil olunub. Amma onun siyasi karyerası əslində, böyük biznes imperiyasının vitrini idi. Əsabil Qasımovun adı ilk dəfə 2000-ci illərin ortalarında "Karat Holdinq" adlı iri şirkət şəbəkəsi ilə hallanmağa başladı. "Karat", "Karmen", "Aveta", "Gəncə Dəyirman", "Karat-Taxıl" və digər MMC-lər bu şəbəkənin tərkibində idi. Hər biri formal olaraq ayrı hüquqi şəxs kimi görünürdü, amma faktiki olaraq bir mərkəzdən idarə olunurdu. Bu holdinqin əsas fəaliyyəti un və taxıl emalı, idxal-ixrac, logistika və satış zəncirinə nəzarət idi. Mətbuatda illərdir səslənən iddialara görə, Əsabil Qasımov ailəsinə məxsus şirkətlər ölkəyə gətirilən buğdanın böyük hissəsini idxal edən və un istehsalının əsas hissəsini tənzimləyən struktur kimi fəaliyyət göstərirdi. Əldə olunan pay o qədər böyük idi ki, 2010-cu illərdə Əsabil Qasımov un bazarının monopolisti kimi tanınırdı. Azərbaycan bazarında mövqelərini möhkəmləndirən Əsabil Qasımov sonradan xaricdə də iri layihələrə girişdi. Onun adının hallandığı ən tanınmış layihələrdən biri Rusiyanın Jeleznovodsk şəhərində inşa edilən 500 çarpayılıq "İstoçnik" sanatoriyasıdır. Layihənin dəyəri 2 milyard rubldan artıq qiymətləndirilir. Mediada yayılan məlumatlara əsasən, bu sanatoriyanın maliyyə mənbələri "Karat Holdinq"ə bağlı şirkətlər vasitəsilə təmin olunub. Maraqlıdır ki, layihənin açılışında Rusiyanın region rəhbərləri iştirak edib, amma Azərbaycanın heç bir rəsmi qurumu bu investisiyanın mənbəyi barədə açıqlama verməyib. Bundan başqa, Qazaxıstanın Kostanay vilayətində yerləşən "Carkulskiy Elevator" adlı böyük taxıl kombinatının səhmdarları arasında da Əsabil Qasımovun şirkətləri göstərilir. Bu obyekt gün ərzində 6 min tonadək taxıl qəbul və təmizləmə gücünə malikdir. Yəni Əsabil Qasımovun biznesi artıq regional səviyyədə fəaliyyət göstərirdi. Onun biznes uğurları parlament kürsüsü ilə paralel gedirdi. Deputat olduğu dövrdə dövlətin kənd təsərrüfatı və ərzaq proqramları üzrə komitələrdə təmsil olunurdu. Mətbuatda o zamanlar tez-tez deputat statusunda olan bir şəxsin bu qədər iri iqtisadi fəaliyyətlə məşğul olmasının qanunvericiliyə zidd olması haqda məlumatlar səslənirdi. Amma Əsabil Qasımov həmin iddiaları nə təkzib etdi, nə də təsdiq. Əvəzində onun biznesi böyüməkdə davam etdi. 2010-cu illərin sonuna qədər "Karat Holdinq" təkcə Azərbaycanda deyil, Rusiyada və Qazaxıstanda da filiallar açmış, daşınmaz əmlak və qida sənayesinə sərmayələr yönəltmişdi. Son illərdə isə Əsabil Qasımovun adının medianın gündəmindən tədricən çəkildiyi müşahidə olunur. Bəzi məlumatlara görə, onun bir sıra şirkətləri ləğv olunub və ya başqa şəxslərin adına keçirilib. 2022-ci ildən etibarən "Karat Holdinq"in bir sıra törəmə şirkətləri kommersiya reyestrindən çıxarılıb. Bəzi mənbələr bunu xaricə, əsasən də, Rusiyaya yönələn sərmayə axını ilə izah edir. Onun bu ölkəyə xüsusi marağının səbəb, yaxud da səbəbləri aydın deyil.

Hər bir halda Ə.Qasımovun Rusiyadakı nəhəng biznesindən danışılarkən "Mehdiyev şəbəkəsi"nə aid izlərin axtarılması diqqət çəkən məqamdır. Daha bir diqqət çəkən detal isə sabiq deputatın sözügedən mövzuda səslənən iddialarla bağlı susqunluğudur. Susmağın razılıq əlaməti olduğuna dair atalar sözünün məhz bu məqamda yerinə düşüb-düşmədiyini isə zaman göstərəcək. Hər bir halda atası haqqında sözügedən iddialar fonunda Taleh Qasımovun Bakıda restoran açması kifayət qədər qəribə gediş sayıla bilər...

***Sənan Mirzə***

46_27 IYUl-QARA.qxd 12/4/2025 9:09 PM Page 10



# Əbülfəs Qarayevin Londonda qeyri-adi macəraları

## Həftənin sualı: sabiq nazir İngiltərə paytaxtında kimlərə və hansı mövzuda mühazirə oxuyur?

***Bu günlərdə sabiq mədəniyyət naziri Əbülfəs Qarayev yenidən medianın gündəminə gəldi. Öncə onun Bakıda özünə təmtəraqlı ad günü keçirməsi, 69 yaşını ehtişamlı şəkildə qeyd etməsi barədə xəbər yayılıb. Ardınca isə sabiq nazir həmin xəbərə münasibət bildirib. Qarayev yayılan məlumatı "bir həftədir Londondayam, bura mühazirə deməyə gəlmişəm" deyərək təkzib edib.***

Lakin o, təfərrüatları açıqlamayıb. Yəni Britaniya paytaxtında məhz harada və hansı mövzuda mühazirə oxuduğuna aydınlıq gətirməyib. Ona görə də istər-istəməz sual yaranır: Əbülfəs müəllimin mühazirəsinə kimlər və niyə ehtiyac duyub? Üstəlik, o, nədən mühazirə oxuya bilər ki?



Qeyd edək ki, Əbülfəz Qarayev 1994-2001-ci illərdə gənclər və idman naziri, 2001-2006-cı illərdə gənclər, idman və turizm naziri, 2006-2018-ci illərdə mədəniyyət və turizm naziri vəzifələrində çalışıb. 2018-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət naziri təyin edilib.

2020-ci ilin mayında DTX onun başçılıq etdiyi nazirlikdə əməliyyat keçirib, onun müavini Rafiq Bayramov, yaxın kadrlarından biri - Mədəniyyət Nazirliyinin tabeliyindəki Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin keçmiş rəisi Zakir Sultanov da daxil olmaqla, bir neçə məmur həbs olunub. 21 may 2020-ci ildə isə nazir vəzifəsindən azad edilib. Məhkəmədə onun ən yaxın adamları korrupsiya, talançılıq əməllərinin nazirin məlumatı və nəzarəti altında həyata keçirildiyi barədə ifadə veriblər, amma Qarayev özü məsuliyyətdən kənarda qala bilib.

Xatırladaq ki, sabiq nazirin elə özü kimi sabiq müavini Rafiq Bayramov istintaq zamanı regional mədəniyyət idarələrinin rəislərindən, həmçinin tenderlərdə qalib gələn şirkətlərdən aldığı bütün pullardan Qarayevin xəbərdar olduğunu və pulları şəxsən ona verdiyini demişdi. R.Bayramov Mədəniyyət Nazirliyinin yerli idarələrindən, musiqi məktəblərindən yığılan aylıq haqqın və təmir-bərpa işləri üçün şirkətlərə ödənilən pullardan gələn "otkat"ın hamısının Ə.Qarayevə çatdırdığını etiraf etmiş, onu da bildirmişdi ki, həmin pullardan özünə çatan 15-20 faiz olub. Yerli idarələrin müdirlərinin çatdırdığı aylıq haqq isə bu və ya digər rayonda yerləşən musiqi məktəblərinin, orada işləyən müəllimlərin sayından asılı imiş: məsələn, Sumqayıt regional mədəniyyət idarəsinin rəisi ayda 10-12 min (rəqəmlər təxminidir), Xaçmaz regional idarəsinin rəisi ayda 4 min, İsmayıllı regional idarəsinin rəisi ayda 15 min, Gəncə regional idarəsinin rəisi ayda təxminən 12 min, Ağdaş regional idarəsinin rəisi ayda təxminən 2 min və s. və i.a. Beləliklə, regional idarələrin rəislərindən yığılan aylıq haqq təxminən 60-65 min manat təşkil edib (iyul-avqust tətil ayları istisna olmaqla). Bir sözlə, böyük bəstəkarımız Qara Qarayevin qardaşı oğlu olan Əbülfəs müəllim musiqi məktəblərini rüşvət alətinə çevirərək bir növ "musiqili korrupsiya" sxemi düzəldibmiş.

Ümumilikdə 5 milyon manatdan artıq büdcə vəsaitinin yeyintisində suçlanan Zakir Sultanov isə təkcə bir epizod üzrə ifadəsində demişdi ki, aldığı rüşvətin 2,5 milyon manatdan çoxunu şəxsən Qarayevə verib. Ölkə mediası Azərbaycanda çox sayda tarixi abidənin məhv olub getdiyini, mühafizəyə və bərpaya ehtiyacı olduğu barədə yazarkən, paytaxt Bakının mərkəzində belə bir çox tarixi əhəmiyyətli bina kimlərinsə bitib-tükənməyən tüccar hərisliyinin qurbanına çevrilərkən, sən demə, Əbülfəs müəllim Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin o vaxtkı rəisinin qanunsuz yollarla yığıb gətirdiyi pulları sayırmış.

Bir sözlə, hansı prizmadan baxırsan bax, göz qabağındakı çox biabırçı mənzərə idi: adında "Mədəniyyət" sözü olan və dövlətin mədəniyyət siyasətinə cavabdeh olan bir qurumda elə Qarayevin iştirakı ilə maddiyyat hərisliyinin heç bir sərhəd tanımadığı bütün çılpaqlığı ilə ortaya çıxmışdı. Əbülfəs müəllim ömrü boyu məhz bu biabırçı mənzərə ilə xatırlanacaq.

Və indi belə bir mənfi reputasiyaya malik şəxsin mühazirələrinə kimlərinsə ehtiyac duyması həqiqətən çox gülməli, ironik görünür.

Hə, ola bilər ki, Qarayevdən Londonda mədəniyyəti korrupsiya vasitəsinə çevirməyin yolları barədə öyrənmək istəyiblər, sabiq nazirdən xahiş ediblər ki, gəlin bizə teatrdan, kinodan tarixi abidələrin mühfizəsinədək ən müxtəlif mədəni seqmentlərdə dövlət vəsaitlərini talan etməyin, rüşvət almağın yollarını öyrədin... Əgər belədirsə, onda başqa məsələ! Bu mövzuda Əbülfəz müəllimdən daha yaxşı kim danışa, mühazirə oxuya bilər ki!

***P.S. "Unikal"ın araşdırması zamanı məlum olub ki, rəhbərlik etdiyi nazirlikdə anti-korrupsiya əməliyyatı keçirilməzdən hardasa üç ay əvvəl, 2019-cu ilin mayında Əbülfəs müəllim İngiltərəyə gedibmiş, Birləşmiş Krallığa bu səfəri çərçivəsində Koventri Universitetini ziyarət edərək İncəsənət və Humanitar Elmlər Fakültəsinin rəhbər heyəti ilə görüşüb, sonra da "Dəyişikliklər və münaqişə dövründə mədəniyyəti qoruyaq: İnsan təhlükəsizliyi üçün mədəniyyət və irsin dəyərləri və ənənələrinin əhəmiyyəti" mövzusunda mühazirə oxuyub! Əldə etdiyimiz məlumata görə, Qarayev adıçəkilən universitetin fəxri doktorudur. İndi - aradan 6 il keçəndən sonra onun İngiltərədə hansı universitetdə mühazirə oxuduğunu bilməsək də, vaxtilə Koventri Universitetindəki mühazirəsinin adındakı "mədəniyyəti qoruyaq" sözləri çox ironikdir. Ən azından ona görə ki, sabiq nazir İngiltərədə mədəniyyəti qortumaqdan dəm vurarkən Azərbaycxanda mədəniyyətin pullarını basıb-yeməklə məşğul idi...***



## Ermənistan vətəndaşlarının məhkəməsi müdafiəçilərin çıxışları ilə davam etdirilir

***Dekabrın 4-də Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir.***

"Unikal" xəbər verir ki, məhkəmə iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak edirlər.

Məhkəmə iclası təqsirləndirilən şəxslərin müdafiəçilərinin çıxışları ilə davam etdirilir.

Təqsirləndirilən Davit İşxanyanın müdafiəçisi Aqşin Məmmədli çıxışında deyib ki, məhkəmə hökmü yalnız qəti və şübhəsiz sübutlar əsasında çıxarılmalıdır. O, D.İşxanyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

D.İşxanyanın digər vəkili Elçin Əmirov da müdafiəçisi olduğu şəxs barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Levon Balayanın müdafiəçisi Vəfa Mehdiyeva hüquqlarını qoruduğu şəxsin əməllərində cinayət tərkibi olmadığını deyib və barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

L.Balayanın digər vəkili Saqi Məmmədov da hüquqlarını müdafiə etdiyi şəxslə bağlı bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Davit Allahverdiyanın müdafiəçisi Nizami Əliyev deyib ki, hüquqlarını qoruduğu şəxs özünü elan olunan ittihamlarda təqsirli bilmir. O bildirib ki, D.Allahverdiyana qarşı irəli sürülmüş sübutlar əsassızdır və mötəbər deyil. Müdafiəçi D.Allahverdiyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Onun digər vəkili Elmaddin Məmmədov da özündən əvvəl çıxış etmiş müdafiəçinin çıxışında göstərilən xüsusatlarla razılaşdığını deyib.

Təqsirləndirilən Erik Qazaryanın müdafiəçisi Natiq Mustafayev çıxışında hüquqlarını qoruduğu şəxsin özünü təqsirli bilmədiyini, silahını təhvil verərək Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinə könüllü təslim olduğunu bildirib. O, E.Qazaryan barəsində bəraət hökmünün çıxarılmasını xahiş edib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

46_27 IYUl-QARA.qxd 12/4/2025 9:09 PM Page 11





# Ali Məhkəmə Müşfiq Atakişiyevin bacısı oğlu ilə bağlı qərar verdi

***"Təfəkkür" Universitetinin prorektoru Tariyel Əhmədovun qətlində təqsirləndirilən Dəyanət Quliyev barəsində olan hökmdən olan şikayətə baxılıb.***

"Unikal"ın məlumatına görə, Ali Məhkəmədə şikayətə baxılaraq qərar qəbul edilib. Hakimlər verilmiş cəzaların qanunauyğun olduğunu elan edilblər.

Qərara əsasən təqsirləndirilənin şikayəti təmin edilməyib. D.Quliyevin 14 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzası qüvvədə saxlanılıb.

Qeyd edək ki, hadisə 13 il əvvəl - 2011-ci ildə baş verib. İttihamda deyilir ki, həmin vaxt "Təfəkkür" Universitetinin rektoru işləyən Müşfiq Atakişiyev özünə rəqib hesab etdiyi prorektor Tariyel Əhmədovun qətlini bacısı oğlu Dəyanət Quliyevə sifariş verib. D. Quliyev isə bu işi qonşusu Samir Quliyevə icra etdirib. Cinayətin üstü 12 il sonra açılıb.

Təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinibn 120.2.5-ci (tamah məqsədilə qəsdən adamöldürmə) maddəsi ilə ittiham irəli sürülüb.

***Seymur Əli***

# Bu avtobus marşrutları üzrə müsabiqələrin qalibləri müəyyən edildi

***Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən sərnişindaşıma sahəsində rəqabətli mühitin, marşrutların təhkim edilməsində qanunvericiliyin tələblərinin təmin edilməsi ilə bağlı tədbirlərin davamı olaraq Bakı-Sınıq Körpü (Qazax sərhəd-keçid məntəqəsi), Bakı-Gəncə, Gəncə-Saatlı və Sumqayıt-Göyçay avtobus marşrutları üzrə müsabiqələrin qalibləri müəyyən edilib.***

"Unikal" xəbər verir ki, bu barədə AYNA məlumat yayıb.

Bildirilib ki, Bakı-Sınıq Körpü (Qazax sərhəd-keçid məntəqəsi) marşrutu üzrə fiziki şəxs Musayev Niyazı Mürşüd oğlu;

Bakı-Gəncə marşrutu üzrə hüquqi şəxs "Uğurlu Yol" MMC;

Gəncə-Saatlı marşrutu üzrə fiziki şəxs Ağaşov Əlsafa Tapdıq oğlu;

Sumqayıt-Göyçay marşrutu üzrə fiziki şəxs Abbasov Hüseyn Əliabbas oğlu qalib elan olunublar.

Müsabiqə "Avtomobil nəqliyyatı haqqında" Qanuna, Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli qərarı ilə təsdiqlənən "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"na uyğun təşkil olunur.

Marşrut xətləri müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq AYNA tərəfindən mərhələli qaydada müsabiqəyə təqdim edilir. Məqsəd sərnişindaşıma sahəsində göstərilən xidmətin keyfiyyəti, təhlükəsizliyi və rahatlığının artırılması, həmçinin marşrutların təhkim edilməsində şəffaflığın təmin olunmasıdır.

# Lütvəli Babayevin oğlu ilə bağlı 2 milyon manatlıq qalmaqalda yeni müəmma

## Keçmiş icra başçısı öz oğlunun vergi borcunu inkar edir - Elə isə Babaəli niyə Türkiyəyə qaçıbmış?



***Sabiq icra başçısı Lütvəli Babayevin oğlunun külli miqdarda pulunu dələduzluq yolu ilə mənimsəməkdə ittiham edilən şəxslər - sabiq baş həkim Aruz Əliyev və tanışı Ehtiram Kərimovun cinayət işi üzrə məhkəmə iclası keçiriləcək. "Unikal"ın məlumatına görə, iclas Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə keçirilicək.***

Xatırladaq ki, son məhkəmə iclasında proses eks-icra başçısı Lütvəli Babayevin ifadəsi ilə davam etdirilib. O, oğlunun vergi ilə bağlı heç bir probleminin olmadığını deyib: "Babaəlinin vergi ilə bağlı problemi olmayıb, çekləri var, bununla bağlı yayılan məlumatlar əsassızdır. Babaəlinin borclu olduğunu Aruz demişdi. Lakin sonradan oğlum dedi ki, onun heç bir borcu yoxdur. Bu məsələ 2017-ci ildən üzə çıxmışdı. Aruzla oğlumun alver məsələsindən xəbərim olmayıb. Aruz hər görüşdə öz borclarını etiraf edərək 2 aya qaytaracağını deyirdi. Bir dəfə dedi ki, etibarnamə Ehtiramdadır, yerdə qalanını da mən qaytararam. Oğlumun Ehtiram və Aruzla olan iş görüşməsindən ancaq ev satışından sonra bilmişəm".

Xatırladaq ki, Babaəli Babazadənin dostu Aruz Əliyev üçüncü şəxslə əlbir olaraq onun əmlaklarını 2 milyon manata satıb pulu mənimsəməkdə ittiham olunur. Bu hadisə baş verməzdən əvvəl isə Babaəli Babazadənin sahibi olduğu tikinti şirkətinin 1 milyon manat vergi borcu yaranıb. Bununla bağlı ona rəsmi məktub gəlib, verginin ödənməli olduğu xatırladılıb. Məsələ ilə bağlı Babaəli dostu Aruz Əliyevlə məsləhətləşib, ondan nə edə biləcəyini soruşub. İddia olunur ki, Aruz Əliyev külli miqdarda vergi borcu yaranmış Babaəli Babazadəyə ölkədən çıxmağı məsləhət bilib.

O, tanışı Ehtiram Kərimovla əlbir şəkildə eks-icra başçısının oğlunun Türkiyəyə qaçmasını təşkil ediblər. Babaəli Babazadə Türkiyədə yaşadığı müddətdə Bakıdakı əmlaklarını idarə etmək üçün Aruz Əliyevə etibarnamə verib, əmlaklar satışa çıxarılıb. Onun dediyinə görə, Aruz Əliyev onun etibarından sui-istifadə edib. Aruz Əliyev və Ehtiram Kərimov Babaəli Babazadənin əmlakını ümumilikdə 2 milyon manata satıblar, pulu sahibinə vermədən şəxsi mənafeləri üçün sərf ediblər. A.Əliyev bu cinayətin üstü açılana kimi "Uniklinika"nın baş həkimi olub. Zərərçəkmiş şəxsin şikayəti əsasında Aruz Əliyev və Ehtiram Kərimov tutulublar. Onlara qarşı Cinayət Məcəlləsinin 178.4 maddəsi (dələduzluq - xeyli miqdarda ziyan vurmaqla törədildikdə) ilə ittiham irəli sürülüb.

Qeyd edək ki, 2005-2007-ci illərdə Mingəçevirin, 2007-2019-cu illərdə isə Zərdab rayonunun icra başçısı olan Lütvəli Babayev son məhkəmə iclasındakı çıxışında oğlunun vergi borcu olmadığını israrla bildirib. Lakin belədə sual yaranıb: elə isə onun oğlu Türkiyəyə qaçıbmış?

Məsələ burasındadır ki, 2 milyon manatlıq qalmaqalın əsas məqamı məhz Türkiyəyə qaçış məsələsidir. Çünki təqsirləndirilən şəxslərə etibarnaməni oğul Babayev məhz qardaş ölkədə olduğu və Bakıdakı əmlaklarının idarə edilməsi üçün verib. Bunu Babəli də öz məhkəmə ifadələrində təsdiqləyib. "Aruz mənə dedi ki, sən ölkədən get, sənin bir milyon manat vergi borcunu bağlayacağıq. Məni Türkiyəyə yola salanda dedim ki, əmlakı satın, vergiyə olan borcumu bağlasınlar. Sonradan başa düşdüm ki, məni Türkiyəyə yola salıb, əmlakımı ələ keçirmək istəyiblər. Binəqədi rayonunda olan əmlakımı 1 milyon 500 min manata satıblar, mənə heç nə verməyiblər" - o daha əvvəllər demişdi.

İndi isə ata Babayev öz oğlunun vergi borcu məsələsini israrla inkar edərək, əlavə sualların yaranmasına yol açır. Başlıca sual budur: oğlu ona borc probleminin olmadığını söyləməklə faktiki yalanmı danışıb? Elə isə Babəlinin digər iddiaları nə qədər inandırıcı qəbul oluna bilər?

Daha bir sual isə ondan ibarətdir ki, əgər sabiq icra başçısı oğlunun vergi borcu olmadığından əmin imişsə, ondan nə üçün Türkiyəyə getdiyini soruşmayıb? Əgər soruşubsa, hansı cavab alıb? Hər halda Babəli öz atasına qardaş ölkəyə tətil, gəzib-dolaşmaq üçün gəldiyini söyləyə bilməzdi. Çünki o, Türkiyədə aylarla qalıb.

Onu da deyək ki, təqsirləndirilən şəxslər ittihamları qəbul etmirlər. Onlar deyirlər ki, zərərçəkmiş əmlaklarını könüllü satdırıb, pulunu da Türkiyədə xərcləyib. İttiham olunan tərəfin iddiasına görə, Babəli ailəsinin əmlakını satıb xərclədikdən sonra vəziyyətdən çıxmaq məqsədilə günahı onların üzərinə atır.

İndi Babəlinin vergi borcu və Türkiyəyə qaçış hekayəsinin tam təfərrüatı ilə ortaya çıxması ən azı ona görə vacibdir ki, 2 milyon manatlıq qalmaqalda kimin həqiqətə, ən azından, daha yaxın danışdığı ortaya çıxsın. Çünki təqsirləndirilənlərin qarşı tərəfə ittihamı (Babəlinin pulları qardaş ölkədə xərcləyib qurtarması və tanışlarını günahkar elan edərək vəziyyətdən çıxmağa çalışması) da kifayət qədər ciddidir və əgər oğul Babayev vergi borcu ilə bağlı atasına yanlış məlumat veribsə, deməli, onun digər məqamlara dair doğru danışdığına da şübhələr yaranacaq...

***Toğrul Əliyev***

**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan ərazilərində partlayan minalar: Rəsmi Bakı kompensasiya tələb edə bilərmi?



***Politoloq Samir Hümbətov bildirir ki, Ermənistanın basdırdığı minalar nəticəsində Azərbaycan vətəndaşlarının həyatını itirməsi soyqırım kimi də dəyərləndirilə bilər.***

Azad edilmiş ərazilərdə tez-tez mina partlayışları baş verir və mülki şəxslər, o cümlədən hərbçilər xəsarətlər alırlar. Azərbaycan rəsmiləri hər zamankı kimi bu hadisələri qınayan bəyanatlar verirlər. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə, Ermənistanın Azərbaycan ərazilərini mina ilə çirkləndirməsi səbəbindən 2020-ci il Vətən müharibəsindən indiyədək 397 nəfər həlak olub və ya yaralanıb. O da bildirilir ki, beynəlxalq təzyiqdən sonra Ermənistan bəzi xəritələri təqdim etsə də, onlar minalanmış ərazilərin yalnız kiçik bir hissəsini əhatə edirdi və yalnız 25 faiz dəqiq idi. Son mina partlayışı hadisələrinin 55 faizdən çoxu bu xəritələrlə əhatə olunmayan ərazilərdə baş verib. Ermənistan tərəfi Azərbaycana 2021-ci ilin 12 iyun, 3 iyul, 19 oktyabr, 1 noyabr və 29 noyabr tarixlərində 972 mina sahəsinin xəritəsini təqdim edib.

Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev isə mina partlayışları ilə bağlı bildirib ki, bu minalar Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı zamanı məqsədli şəkildə və geniş miqyasda yerləşdirilib. Onun sözlərinə görə, bir çox hallarda minalar hərbi zərurət olmadan, sırf mülki əhalini hədəfə almaq və köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışını ləngitmək məqsədilə basdırılıb. Bu mənada minalar kütləvi qırğın silahları qismində çıxış edir və ciddi təhlükə mənbəyidir.

Millət vəkili Nizami Səfərov isə"Unikal" qəzetinə açıqlamasında bildirib ki, azad edilmiş ərazilərdə quruculuq işlərinin surətlə, ardıcıl və təhlükəsiz şəraitdə həyata keçirilməsi üçün ən ciddi təhdidlərdən biri ermənilər tərəfindən yüz minlərlə minaların yerləşdirilməsidir. Onun sözlərinə görə, Ermənistan bu əhəmiyyətli məsələdə, hamişə olduğu kimi, məsuliyyətsiz və beynəlxalq hüquqa zidd davranış sərgiləyir: "Minaların geniş miqyasda yayılmasının nəticəsi olan ciddi humanitar böhrana cavab olaraq beynəlxalq konvesiyalar da qəbul edilib. Bu baxımdan təcavüzkar siyasət yürüdən, qonşu dövlətlərə ərazi iddiaları irəli sürən, etnik təmizləmələr, soyqırım, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törədən Ermənistan tərəfindən beynəlxalq hüquq normalarına riayət edilməsini gözləmək sadəlövhlük olardı".

Nizami Səfərov qeyd edir ki, minaların geniş miqyasda yayılmasının nəticəsi olan ciddi humanitar böhrana cavab olaraq 10 oktyabr 1980-ci ildə BMT çərçivəsində "Həddindən artıq xəsarətlər yetirən və ya hədəf seçməyən hesab edilə bilən müəyyən adi silahların qadağan edilməsi və ya məhdudlaşdırılması haqqında" Konvensiya (I, II və III saylı Protokollar daxil olmaqla) və 1997-ci il 18 sentyabr tarixində Kanadanın paytaxtı Ottava şəhərində "Piyadalar əleyhinə minaların tətbiqinin, yığılmasının, istehsalının və verilməsinin qadağan olunması və onların məhv edilməsi haqqında" Konvensiya qəbul olunub: "Ermənistan bu Konvensiyaları imzalamayıb ratifikasiya etməsə də, hətta bu mühüm müqavilələrin iştirakçısı olmayan dövlətlər qeyd edilən hər iki konvensiyanın beynəlxalq adət hüququna əsaslanmasını rəhbər tutaraq, onların müddəalarına mütləq formada riayət etməlidirlər".

Millət vəkili hesab edir ki, Ermənistan tərəfindən minalanmış sahələrin dəqiq xəritələrinin ölkəmizə təqdim edilməməsi beynəlxalq humanitar hüquqda təşəkkül tapmış mülki əhali ilə hərbi hədəflərin fərqləndirilməsi və mütənasiblik prinsiplərini açıq-aşkar pozaraq, müharibə cinayəti kimi tövsüf edilməlidir: "Beynəlxalq cinayət məhkəməsinin Nizamnaməsinə görə, mülki şəxslərin təsadüfi ölümünə və xəsarət almasına və ya mülki obyektlərə ziyan vurulmasına səbəb olan, hücumların qəsdən törədilməsi və həmçinin beynəlxalq silahlı münaqişələr hüququnun əleyhinə müharibə üsullarının tətbiqi müharibə cinayəti hesab edilir və bu əməlləri törətmiş şəxslər beynəlxalq cinayət məsuliyyəti daşıyırlar. Kompensasiya tələbi üçün mexanizmlər isə mürəkkəbdir. Kompensasiya üçün məhkəməyə vermək lazımdır. BMT-nin Beynəlxalq Məhkəməsi isə yalnız dövlətlərarası mübahisələrə baxır. Bu baxımdan mina qurbanlarına görə, kompensasiya məsələsinin məhkəmə yolu ilə həll edilməsi çətindir".

Politoloq Samir Hümbətov da "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Ermənistanın basdırdığı minalar nəticəsində Azərbaycan vətəndaşlarının həyatını itirməsi soyqırım kimi də dəyərləndirilə bilər: "Ermənistan bilərəkdən mina xəritələrini gizlədir. Xəritələr olmadan ərazilərin minalardan təmizlənməsi uzun zaman çəkəcək. Azərbaycan bu məsələ ilə bağlı Ermənistanı məhkəməyə verib, təzminat tələb edə bilər. Vətəndaşlarımıza qarşı bu fəaliyyət beynəlxalq hüquq müstəvisində araşdırılmalıdır. Azərbaycan tərəfi bunu hüquqi müstəvidə tam əsaslandıra bilər".

200-ə yaxın vətəndaşımızın mina terrorunun qurbanı olduğunu söyləyən politoloq bunun sülh müqaviləsinin imzalanmasını ləngitdiyini də söyləyib. Odur ki, Azərbaycanın Ermənistandan tələb etdiyi mina xəritəsi dövlətimizə verilməlidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Mirzə Qədim İrəvani "Xalq Əmanəti" layihəsinin 26-cı nəşrində

***"Xalq Bank"ın həyata keçirdiyi "Xalq Əmanəti" layihəsinin 26-cı nəşri XIX əsrin görkəmli rəssamı, Azərbaycanın dəzgah boyakarlığının banisi, Mirzə Qədim İrəvaniyə həsr olunub.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd olunması ilə əlaqədar ölkəmizdə müxtəlif yubiley tədbirləri keçirilir.

M.Q.İrəvaninin həyat və yaradıcılığından bəhs edən bədii albom Azərbaycan, ingilis və rus dillərində hazırlanaraq nəfis tərtibatda nəşr edilmişdir.

Mirzə Qədim İrəvaninin əsərləri dünyanın məşhur muzeylərində və kolleksiyalarda sərgilənir. Onun yaradıcılığında Sərdar sarayını bəzəyən divar rəsmləri və rəngkarlıq əsərləri xüsusi yer tutur, günümüzə çatan əsərləri isə İrəvan diyarının və bütövlükdə Azərbaycanın mədəni irsinin mühüm tərkib hissəsini təşkil edir.

2025-ci il dekabrın 4-dən etibarən Xalq Bankın Əsas binasında yerləşən rəsm qalereyasında M.Q.İrəvaninin əsərlərindən ibarət sərgini həftəiçi 5 gün saat 18:00-dan 21:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 16:00-dək seyr etmək mümkündür. Giriş sərbəstdir. Ünvan: İnşaatçılar pr., 22 L

"Xalq Əmanəti" layihəsi ASC "Xalq" Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə Azərbaycan xalqının mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərinin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar - Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələri, uşaq evləri və kitabxanalar, müxtəlif fondlar, dövlət müəssisələri, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına və sənətsevərlərə hədiyyə olunur. Bu günədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Tağı Tağıyev, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, əməkdar rəssam Cahid Camal, Ələkbər Rzaquliyev, Mahmud Tağıyev, eləcə də əməkdar incəsənət xadimi Vəcihə Səmədova, Kamal Əhmədlə yanaşı, Şamo Abasov, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hökumə Billuri, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin və Güney azərbaycan şairlərinin əsərlərindən ibarət antologiya, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görüb.

46_27 IYUI-QARA.qxd 12/4/2025 9:09 PM Page 13





## Lənkəranda iki körpü yenidən inşa edilir

***M-3 Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Lənkəran rayonu ərazisindən keçən hissəsində istismar müddətini başa vurmuş iki körpünün yenidən inşası həyata keçirilir. Sözügedən körpülər magistral yolun 193-cü və 197-ci kilometrliklərində yerləşir.***

Bu barədə "Unikal"a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən məlumat verilib.

Qeyd olunur ki, hər iki körpü 46 metr uzunluğunda, 14,5 metr enində və bir aşırımlı olmaqla "İnşaat Norma və Qaydaları"na uyğun şəkildə tikilir. Körpülər iki hərəkət hissəsindən ibarət olacaq və nəqliyyat axınının təhlükəsiz şəkildə təmin edilməsi məqsədilə bütün texniki tələblər nəzərə alınır.

Ələt-Astara magistralının 193-cü kilometrliyində, Lənkəran rayonunun Ürgə kəndi ərazisində, Lənkəran-Liman yolunu birləşdirən və Viravul çayı üzərində yerləşən körpüdə yenidənqurma işləri davam etdirilir. Tikinti müddətində nəqliyyat vasitələrinin hərəkəti üçün ərazidə alternativ yolun fəaliyyəti təmin olunub.

Magistralın 197-ci kilometrliyində, Göyşaban kəndi ərazisində yerləşən körpünün yenidən qurulması ilə əlaqədar yolun həmin hissəsi müvəqqəti olaraq bağlanıb. Hazırda layihə çərçivəsində körpü tirlərinin quraşdırılması, betonlama işləri, çay məcrasında istinad divarlarının və mühafizə bəndinin inşası icra olunur. Körpü Girdəni çayı üzərində yerləşir.

Hər iki körpüdə hazırda svay bərkitmə və digər konstruktiv işlər aparılır. Bütün tikinti prosesləri qüvvədə olan dövlət standartları və texniki-təhlükəsizlik tələblərinə uyğun şəkildə həyata keçirilir.

Qeyd edək ki, istismar müddətini başa vurmuş körpülərin yenidən inşasına ötən ayın əvvəlində başlanılıb.

Layihənin qısa müddətdə başa çatdırılması məqsədilə əraziyə tələb olunan sayda texnika və canlı qüvvə cəlb edilib.

## 2025-ci ilin 9 ayı üzrə Laçında kənd təsərrüfatının bəzi göstəriciləri belə olub

***2025-ci ilin yanvar-noyabr aylarında məhsulu yığılmış kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 3112,0 hektar olmuşdur.***

Bu sahələrdən 1150,0 ton buğda, 1889,4 ton arpa və 3700,0 ton yem bitkisi (yonca) məhsulu yığılmışdır. Orta məhsuldarlıq buğdada 7,3 sentner, arpada 22,8 sentner, yoncada isə 52,1 sentner təşkil etmişdir. Bu dövrdə rayon üzrə diri çəkidə 3112,0 ton ət, 21530,0 ton süd, 4304,0 min ədəd yumurta və 313,0 ton yun istehsal edilmişdir.

*Laçın Rayon Statistika İdarəsi*

# AZAL uçuş cədvəlindəki mümkün dəyişikliklərə qarşı sığorta xidmətini istifadəyə verib

***AZCON Holding şirkətlərindən olan "Azərbaycan Hava Yolları" (AZAL) sərnişinlərinə uçuş cədvəlində yarana biləcək gözlənilməz dəyişikliklərə qarşı əvvəlcədən qorunmaq imkanı yaradan DAFAR ("Disruption Assistance For Any Reason") adlı yeni rəqəmsal xidməti istifadəyə verib. Bu xidmət gecikmə və ya reysin ləğvi kimi hallarda sərnişinlərə operativ dəstəyin göstərilməsini nəzərdə tutur.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

DAFAR xidməti AZAL-ın rəsmi veb-saytı və mobil tətbiqində biletin bron edilməsi mərhələsində əlavə seçim kimi təklif olunur. Xidmət səyahət texnologiyaları üzrə qlobal platforma olan HTS ("Hopper Technology Solutions") ilə tərəfdaşlıq çərçivəsində tətbiq edilib.

DAFAR ödənişli əsasda təqdim edilir və xidmətin dəyəri istiqamətdən asılı olaraq dəyişir. Xidmət aktivləşdirildikdən sonra sistem reysin statusunu avtomatik izləyir. Uçuşun 2 saat və ya daha çox gecikməsi, yaxud həmin gün ləğv olunması halında sərnişinə bildiriş göndərilir və aşağıdakı seçim imkanları verilir:




- müəyyən edilmiş limit çərçivəsində əlavə ödəniş etmədən marşrut üzrə uçuş həyata keçirən istənilən aviaşirkətə biletin yenidən bron edilməsi;
- bilet dəyərinin 100% geri qaytarılması və sərnişinin istəyi ilə səyahətin ilkin biletlə davam etdirilməsi.

Yeni xidmətin istifadəyə verilməsinə münasibət bildirən "Azərbaycan Hava Yolları"nın baş kommersiya inzibatçısı Cəmil Manizadə qeyd edib ki, AZAL səyahətçilərin dəyişən ehtiyaclarına uyğun müasir həllərin tətbiqinə xüsusi diqqət yetirir. "Bu tərəfdaşlıq müştəri loyallığının güclənməsinə və sərnişinlər üçün daha çevik, operativ xidmətin təmin edilməsinə imkan yaradacaq".

"Hopper" və HTS-in prezidenti və həmtəsisçisi Dakota Smit isə öz növbəsində bildirib: "Azərbaycan Hava Yolları ilə əməkdaşlıq etməkdən və Avrasiya regionunda sərnişinlər üçün imkanları genişləndirməkdən qürur duyuruq. Fintex həllərimiz sərnişinlər üçün əlavə dəyər yaradır."

Qeyd edək ki, HTS məlumat analitikası və süni intellekt əsaslı texnologiyalar vasitəsilə müasir səyahətçilərə dəstək məqsədilə fintex həlləri hazırlayan aparıcı qlobal səyahət texnologiyaları platformasıdır. Şirkət dünyanın ən böyük bankları, aviaşirkətləri və turizm xidmətləri təminatçıları ilə əməkdaşlıq edir, qiymət dəyişkənliyi və səfər zamanı yarana biləcək dəyişikliklər daxil olmaqla geniş spektr üzrə əlavə məhsullar təqdim edir.

# Milli Kitabxanada "Akademik Kamal Abdulla - 75" adlı sərgi keçirilib

***Milli Kitabxanada görkəmli akademik, türkoloq, filoloq-slavyanşünas, ədəbi tənqidçi, dramaturq və şair, Azərbaycan ədəbiyyatının ən seçilən nasirlərindən biri, Xalq yazıçısı Kamal Abdullanın anadan olmasının 75 illiyi münasibətilə "Akademik Kamal Abdulla - 75" adlı ənənəvi kitab sərgisi və "Xalq yazıçısı Kamal Abdulla" adlı virtual sərgi istifadəçilərə təqdim olunub.***

Sərgilərdə rəsmi sənədlər, Milli ədəbiyyatımızın görkəmli nümayəndəsi, istedadlı yazıçı-dramaturq, Əməkdar elm xadimi, Xalq yazıçısı, akademik Kamal Abdullanın fundamental elmi tədqiqatları, dəyərli, sanballı monoqrafiyaları, romanları, povestləri, hekayələri, pyesləri, şeirləri, tərcümələri, esseləri, ideya müəllifi, layihə rəhbəri, elmi redaktor, rəyçi və məslətçi olduğu əsərlər, həyatı, elmi fəaliyyəti, bədii və çoxşaxəli yaradıcılığı haqqında tədqiqat əsərləri, Azərbaycan və xarici dillərdə ədəbiyyatlar, dövri mətbuat materialları nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər https://anl.az/el/vsb/Xalq_yazicisi_Kamal_Abdulla/index.htm linkindən istifadə edə bilərlər.

Xalq yazıçısı, ictimai xadim, akademik Kamal Abdulla 4 dekabr 1950-ci ildə Bakıda ziyalı ailəsində doğulub. 1968-ci ildə Bakıda 190 saylı orta məktəbi bitirib. 1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. 1977-ci ilin yanvar ayında Moskvada "Sintaktik paralelizm" ("Kitabi-Dədə Qorqud" dastanlarının dili üzrə) adlı namizədlik dissertasiyasını, 1984-cü ildə Bakıda "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı doktorluq dissertasiyası müdafiə edib.




300-ə yaxın məqalənin, 20-dən çox dərs vəsaiti və monoqrafiyanın müəllifi olan akademik Kamal Abdulla müasir ədəbiyyatımız və dilçiliyimiz üçün çox qiymətli tədqiqatlar aparıb, "Azərbaycan dili sintaksisinin nəzəri problemləri", "Mifdən yazıya", "Dilçiliyə səyahət" və s. kimi əsərlər ərsəyə gətirib.

Kamal Abdulla Azərbaycan ədəbiyyatının ən orijinal yazıçılarından biridir. O, "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox..." və "Sirlərin sərgüzəşti" romanlarının müəllifidir. Bu romanlar müxtəlif dillərə tərcümə edilərək Fransa, İtaliya, Avstriya, Yaponiya, Amerika, Braziliya, Rusiya, Türkiyə, Misir, Polşa, Litva, Qazaxstan və başqa ölkələrdə çap edilib.

Kamal Abdulla həm də mahir dramaturqdur. Onun "Casus" və "Beyrək", "Bir-iki, bizimki" və s. kimi dram əsərləri bu gün teatrlarımızın səhnəsində böyük alqışlarla qarşılanır.

AMEA-nın həqiqi üzvü, Birinci dərəcəli dövlət müşaviri, Azərbaycan Dillər Universitetinin rektoru, Azərbaycan Yaradıcılıq Fondunun sədri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədridir. Həmçinin, bir sıra ölkədaxili və xarici ədəbi, ictimai, elmi qurumların üzvüdür.

Akademik Kamal Abdulla bir çox mükafatlara və təltiflərə, o cümlədən, 1999-cu il 9 dekabr tarixində Azərbaycan xalqının mühüm tarix və mədəniyyət abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanının tədqiqindəki xidmətlərinə görə Ölkə Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının Əməkdar elm xadimi", 2019-cu il 25 may tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə "Xalq yazıçısı" fəxri adlarına layiq görülüb, 30 dekabr 2020-ci ildə Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilib.

46_27 IYUl-QARA.qxd 12/4/2025 9:09 PM Page 14



# AQTA qanunsuz küçə satışına qarşı reyd keçirdi - Nöqsanlar aşkarlandı

***Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsində fəaliyyət göstərən "Yasamal" bazarına və "İnşaatçılar" metrostansiyası ətrafında qanunsuz həyata keçirilən küçə satışı yerlərinə baxış keçirib.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, baxış zamanı bazarda yumurta, süd və süd məhsullarının baytarlıq ekspertizasından keçirilmədən satışa çıxarıldığı və açıq şəraitdə, soyuducudan kənarda temperatur rejiminə əməl olunmadan saxlanıldığı müəyyən edilib. Həmçinin ev üsulu ilə hazırlanmış və etiket məlumatları qeyd edilməyən müxtəlif növ turşular aşkarlanıb. Nöqsanların aradan qaldırılması barədə icrası məcburi göstərişlər verilib.



Qeyd edək ki, bazar rəhbərləri qida məhsullarının satışını təhlükəsiz şəkildə təmin etməlidirlər. Bunun üçün bazarda müvafiq şərait qurulmalıdır.

"İnşaatçılar" metrostansiyasının yaxınlığında qanunsuz küçə satışı piştaxtalarında yüksək riskli qida məhsullarının (balıq, toyuq, turşu, kərə yağı, süd və süd məhsulları) antisanitar şəraitdə, temperatur rejiminə və saxlanma qaydasına əməl edilmədən satışa çıxarıldığı, eləcə də müvafiq baytarlıq sənədlərinin olmadığı müəyyən edilib. Satıcılarla maarifləndirici söhbət aparılıb, qanunun tələbləri izah olunub. Qeyd edilib ki, yüksək riskli qida məhsullarının natəmiz şəraitdə küçədə, yol kənarında satışı insan həyat və sağlamlığı üçün təhlükə törədir. Mənşəyi məlum olmayan, təhlükəsizlik göstəriciləri şübhə doğuran bu cür məhsulların istehlakı tövsiyə olunmur.

Agentlik qanunsuz küçə ticarətinin qarşısının alınması üçün aidiyyəti qurumlara müraciət edir. Bu cür tədbirlər digər ünvanlarda da həyata keçiriləcək.

# Vüsallaşan həsrətli günlər...

***Şanlı tariximizə qızıl hərflərlə yazılan 44 günlük İkinci Qarabağ müharibəsində canını sevdalandığı Vətənə fəda edən qəhrəman oğullardan biri də 1990-cı il dekabrın 17-sində Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində anadan olan zəfər şəhidi Vüsal Kamran oğlu Kazımovdur. İki ali təhsilli, Vətən torpağının bütövlüyü uğrunda hər an canından keçməyə hazır olan Lənkəran elinin qəhrəman oğlu həqiqi hərbi xidmətini layiqincə yerinə yetirib və baş leytenant kimi doğmaların yanına qayıdıb. Bir müddət Lənkəran şəhər gənclər və idman idarəsinin nəzdində Uşaq Gənclər İdman məktəbinin direktoru vəzifəsində çalışıb.***

Baş leytenant Vüsal Kazımov 2020-ci il 27 sentyabrda Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinə könüllü qatılıb. Füzuli əməliyyatında, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azadlığı naminə böyük şücaət göstərib. Döyüş yoldaşları ilə birgə hər dəfə müqəddəs, ulu torpağın bağrına zəfər bayrağı sancanda Vətənə olan sevgisi, yağıya nifrəti daha da alovlanıb.

Neçə-neçə ağır müharibə meydanından qalib çıxan baş leytenant sonuncu dəfə 26 oktyabrda ailəsi ilə əlaqə saxlayıb, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhadətə yüksəlib. 29 noyabr 2020-ci il tarixində Lənkəranın Yuxarı Nüvədi kəndində böyük izdihamla uğrunda canından keçdiyi torpağa tapşırılıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Xocavəndin, Füzulinin azadlığı uğrunda medalları ilə təltif edilib.

Təkcə öz ailəsi üçün deyil, bütün Azərbaycan xalqı üçün əziz olan Vüsalın yarımçıq arzularını cücərdəcək iki qız övladını bizlərə əmanət qoyub. Nuray və Aynur...



Vətən müharibəsi şəhidi baş leytenant Vüsal Kazımovun anım günündə Yuxarı Nüvədi kənd tam orta məktəbində "Qarabağ Azərbaycandır" adlı tədbir keçirildi.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovun, millət vəkilləri Anar İsgəndərovun və Elçin Mirzəbəylinin, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimovun, Bakı Dövlət Universiteti və Bakı Mühəndislik Universitetinin professoru Şikar Qasımovun, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucovun, şəhid ailələrin, müharibə əlilləri və iştirakçıların, rayon sakinlərin iştirak etdiyi tədbirin rəsmi hissəsində Vətən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anıldı, məktəblilər tərəfindən Dövlət Bayrağı zala gətirildi və Dövlət Himni oxundu.



Açılış nitqində Lənkəran ŞİH başçısı Taleh Qaraşov bildirdi ki, Azərbaycan dövləti tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə böyük qayğı vardır: "Bu istiqamətdə ardıcıl və sistemli işlər həyata keçirilir. Şəxsən dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə xüsusi diqqət və qayğısı nəticəsində onların sosial müdafiəsi, mənzil təminatı, mənzil-kommunal şəraiti daimi yaxşılaşır".

Şəhid atası, professor Kamran Kazımov öz növbəsində tədbir iştirakçılarını səmimi-qəlbdən salamladı, övladının xatirəsinə göstərilən yüksək ehtirama görə məktəb rəhbərliyinə və təşkilatçılara dərin təşəkkürünü bildirdi: "Vətən bayrağını uca tutan şəhid millətin əbədi şərəf zirvəsidir. Fəqət, bu cür tədbirlər təkcə şəhidlərin əziz xatirəsinin yaşadılması, onlara ehtiram deyil, həm də gənc nəslin Vətənə sədaqət və dövlətçilik ruhunda tərbiyəsinə mühüm töhfə verir".

Rəsmi çıxışlardan sonra məktəblilər tərəfindən şəhidlərin əziz xatirəsinə həsr olunmuş şerlər, poetik kompozisiyalar və "Azərbaycan", "Mənim atam qəhrəmandır", "Ana Can", "Vətən əmanəti", "Şəhid Vüsal Kazımov", "Qayıdıram sənə Şuşa", "Cənab Leytenant" və digər vətənpərvər mövzulu mahnılar tədbirə özgə bir ovqat qatdı.

Həmçinin, rəsmilər zəfər şəhidi baş leytenant Vüsal Kazımov və Birinci Qarabağ müharibəsinin şəhidi Mais Mirzəcanovun məzarını ziyarət etdilər, Yuxarı Nüvədi kəndində yerləşən Vüsal Kazımov adına parkda oldular.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***



# Aztelekom" Məzmun Çatdırılma Şəbəkəsi ilə əməkdaşlığa başlayıb

***AZCON Holding şirkətlərindən olan "Aztelekom" MMC məzmun çatdırılma üzrə qlobal lider şirkətlərindən olan "GCORE" ilə tərəfdaşlıq əldə edərək Azərbaycan üzrə əsas tərəfdaş statusunu qazanıb.***

"Unikal" xəbər verir ki, bu əməkdaşlıq həm texnoloji, həm də strateji baxımdan Azərbaycanın Regional İnternet Haba çevrilməsi istiqamətində mühüm addım hesab olunur və ölkənin beynəlxalq internet infrastrukturundakı mövqeyini daha da möhkəmləndirir.

Məzmun Çatdırılma Şəbəkəsi (CDN) texnologiyası internetdə video, oyun, proqram yeniləmələri və digər məzmunların istifadəçiyə daha sürətli, sabit və etibarlı şəkildə çatdırılmasını təmin edən müasir sistemdir. Sözügedən texnologiya sayəsində məlumat coğrafi cəhətdən istifadəçiyə daha yaxın serverlər vasitəsilə təqdim olunur, bu da xidmət keyfiyyətini və istifadəçi təcrübəsini əhəmiyyətli dərəcədə yüksəldir.

Tərəfdaşlıq çərçivəsində CDN infrastrukturunun qurulmasının ilk mərhələsi uğurla yekunlaşıb və nəticələr artıq özünü göstərməkdədir. Yeni sistem sayəsində trafikin idarə olunması daha çevik, infrastruktur daha optimallaşdırılmış hala gətirilib. Bu həm texniki səmərəliliyi artırıb, həm də xərclərin azaldılmasına mühüm töhfə verib.

Hazırda "Aztelekom"un CDN sistemi qlobal miqyasda fəaliyyət göstərən sosial şəbəkələrin və oyun şirkətlərinin məzmununu regiondakı istifadəçilərə daha sürətli və etibarlı şəkildə çatdırır. Yeni başlayan tərəfdaşlıq nəticəsində dünyanın aparıcı media və texnologiya şirkətləri ilə yanaşı, "Wargaming", "Funcom", "Sandbox İnteractive", "Nitrado", "Photon", "Fawkes Games", "Saber Interactive" kimi şirkətlər də bu sıraya daxil edilib.

Qeyd edək ki, son 5 ildə "Meta", "Google", "Akamai", "Tencent", "Cloudflare" və digər qlobal "bulud" infrastruktur liderləri (hyperscalers) olan şirkətlərlə qurulan geniş əməkdaşlıqlar sayəsində "Aztelekom" ölkədə ən iri tərəfdaşlıq portfelinə sahib qurumlardan birinə çevrilib.

# Siyəzəndə əhaliyə göstərilən ödənişli xidmətlər barədə statistika

***Siyəzən rayonu üzrə 2025-ci ilin yanvar-sentyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2024-cü ilin müvafiq dövrünə nisbətən real ifadədə 1,5 faiz artaraq 17212,1 min manat təşkil edib.***

Hüquqi şəxslər tərəfindən əhaliyə 6927,6 min manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 40,2 faizini təşkil etmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında əhalinin hər bir nəfəri orta hesabla 409,8 manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 30,2 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

***Siyəzən Rayon***
***Statistika İdarəsinin rəisi***
***Kamil Xəlilov***

46_27 IYUI-QARA.qxd 12/4/2025 9:10 PM Page 15



## ATƏT sədri Minsk Qrupunun bağlanmasını həyati addım adlandırdı



***ATƏT-in Minsk qrupunun bağlanması qərarı Ermənistan və Azərbaycan arasında sülh prosesini dəstəkləyən həyati dərəcədə vacib addımdır.***

"Unikal" xəbər verir ki, bu barədə Finlandiyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonen bildirib.

"Ermənistan və Azərbaycan arasında sülh prosesində müsbət irəliləyişin şahidi oldum. Avqust ayında biz ATƏT-in Minsk Qrupunu və onun əlaqəli strukturlarını bağlamaq barədə qərar qəbul etdik.

Bu, sülh prosesinin dəstəklənməsi, eləcə də ATƏT-in büdcəsinin təsdiqinə əsas maneənin aradan qaldırılması istiqamətində mühüm addımdır", - Elina Valtonen qeyd edib.

***Ağarza Elçinoğlu***

## İlon Mask İngiltərəni polis dövləti adlandırdı

***Amerikalı sahibkar və milyarder İlon Mask İngiltərəni Polis dövlət" adlandırıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə sosial şəbəkə hesabında yazıb.

"Böyük Britaniya polis dövlətidir", - o, qeyd edib.

Bu, Maskın Britaniya hökuməti haqqında ilk sərt qiymətləndirməsi deyil. Oktyabr ayında o, baş nazir Keir Starmeri "başı boş aktyor" adlandırıb.

***Gülayə Mecid***

## "Danışıqlarda çox az irəliləyiş var" - Ukraynanın ABŞ-dəki səfiri

***Hazırda Moskva və Kiyev arasında münaqişənin sülh yolu ilə həllində az irəliləyiş var.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu Ukraynanın ABŞ-dəki səfiri Olqa Stefanişina deyib.

O, əmin edib ki, ABŞ və Ukrayna nəticələr əldə etməyə sadiqdir. Onun sözlərinə görə, Kiyev hərbi əməliyyatların dayandırılması və davamlı sülhün bərqərar olması üçün hər cür səy göstərir. Diplomat bildirib ki, tərəflər hazırda müqavilələrin potensial miqyasını müzakirə edirlər.

"İndi isə biz Moskva görüşündən sonra gələcək addımları, eləcə də mümkün növbəti addımları müzakirə edirik. Deməli, çox da irəliləyiş yoxdur, lakin proses davam edir", - Stefanişina bildirib.

***Gülayə Mecid***

## İnstitutun adını Trampın şərəfinə dəyişdirdilər

ABŞ Dövlət Departamenti Vaşinqtonda yerləşən Amerika Birləşmiş Ştatları Sülh İnstitutunun (USIP) adını ABŞ prezidenti Donald Trampın şərəfinə dəyişdirib.

"Unikal" xəbər verir ki, bu barədə idarənin mətbuat xidməti məlumat yayıb.

"Dövlət Departamenti Sülh İnstitutunun adını ölkəmizin tarixində ən böyük danışıqlar aparan şəxs adlandırıb. Donald Tramp Sülh İnstitutuna xoş gəlmisiniz", - bəyanatda deyilir. Mətbuat xidməti Ağ Ev rəhbərinin adının ilk dəfə göründüyü institutun binasının fotosunu da paylaşıb.

***Gülayə Mecid***

# Rusiya-Ukrayna müharibəsində yolun sonu

***Dördüncü ilinə yaxınlaşan Rusiya-Ukrayna müharibəsində yolun sonu görünür...***



Müharibə aparan iki ölkənin ərazisindən başqa, Qara dəniz də savaş meydanına çevrilib. Son zamanlarda Ukrayna tərəfinin Rusiya gəmilərinə etdiyi hücumlar Türkiyəni Qara dənizdə ən uzun sahilə malik olan ölkə kimi aktiv hərəkətə keçirib. Onsuz da müharibənin həllinə töhfə vermək istəyən Ankara indi həm də münaqişənin daha geniş coğrafiyaya yayılmasının qarşısını almağa çalışır. Təsadüfi deyil ki, Türkiyənin xarici işlər naziri Hakan Fidan Brüsseldə Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerovla görüşüb. Görüşdə müzakirə olunan mövzular açıqlanmasa da, danışıqların bu haşiyədə getdiyi şübhəsizdir.

Bu hücumlara cavab olaraq, Kreml Ukraynanı dənizdən kəsməklə hədələdi.

Sonuncu dəfə dekabr ayının 2-də Kremldə qurulan masada 20 bəndlik sülh planı layihəsinin bir neçə bəndi Vladimir Putinin xoşuna gəlməyib. Rusiya tərəfi Amerika ilə danışıqların təfərrüatlarını açıqlamamağa razılaşıblar.

Rusiya ilə danışıqlarda iştirak edən ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoff və kürəkəni Cared Kuşner Putinlə beş saatlıq danışıqlardan sonra, ABŞ-nin Moskvadakı səfirliyinin binasına gediblər. Çox güman ki, Trampın təkliflərinə Putinin reaksiyasını öyrənmək ABŞ liderinin xüsusi marağında olub ki, yüksək səviyyəli diplomatların geri qayıtmasını gözləməyib.

Daha sonra Trampın xüsusi nümayəndəsi və kürəkəni Ukrayna lideri Volodimir Zelenski ilə danışıqları ləğv edərək Moskvadan birbaşa ABŞ-yə qayıdıblar.

Bu isə onu deməyə əsas verir ki, rəsmi Moskvanın xoşuna gəlməyən bəndlər yenidən dəyişdiriləcək və ya dəyişdiriləcək. Belə ki, əhəmiyyətli dəyişiklik olmadığından, ABŞ-Ukrayna tərəflərinin danışmağa heç nəyi qalmayıb.

Ukrayna Prezidenti Volodimir Zelenski öz növbəsində bildirib ki, Kiyev ABŞ-də görüşlərə hazırlaşır. Amerikalılar Moskvadan qayıtdıqdan və Vaşinqtonda müvafiq məsləhətləşmələrdən sonra Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov və Baş Qərargah rəisi Andrey Qnatov Trampın nümayəndələri ilə söhbəti davam etdirəcəklər. Bundan sonra Uitkoff və Kuşnerin dekabr ayının 4-də sözügedən şəxslərlə danışıqlar aparacağı məlum olub. Burada Rusiyanın sülh layihəsi paketinə verdiyi reaksiyaların və "qırmızı xətlər"in müzakirə olunacağı istisna deyil.

ABŞ dövlət katibi Marko Rubio Ukrayna danışıqlarında mübahisə doğuran əsas müddəanı açıqlayıb. O, əsas amil kimi Donetsk vilayətinin Kiyevin nəzarətində olan 20% ərazisini göstərib: "Hazırda sözün əsl mənasında mübahisə etdikləri təqribən 30-50 kilometrlik bir ərazi və Donetsk vilayətinin 20%-i (Ukraynanın nəzarəti altında) qalır".

Putin "India Today"ə müsahibəsində bildirib ki, Rusiya Donbass və Novorossiyanı (yeni işğal edilən ərazilər) istər hərbi, istərsə də başqa yolla azad edəcək: "Rusiya Ukraynaya qoşunlarını Donbassdan çıxarmağı və hərbi əməliyyatlara başlamamağı təklif etdi, lakin Kiyev müharibəyə üstünlük verdi".

Belə çıxır ki, Kiyev gec-tez Donetskin və itirilmiş ərazilərin tam ilhaqı ilə razılaşmalı olacaq. Çünki Putin istəyinə nail olmadan müharibəni bitirmək niyyətində deyil.

Ağ Evin rəhbəri danışıqlardan bəhs edərkən bildirib ki, Uitkoff və Kuşner əmindirlər ki, Rusiya Ukraynadakı münaqişənin həllinə sadiqdir. Tramp vurğulayıb ki, Putin müharibəni bitirmək istəyir.

Əslində, D.Tramp ikinci dəfə prezident seçilən vaxtdan bəri Rusiya tərəfindən çıxış edir. Bu, hegemon dövlətin güclünün yanında olduğunu, həm də Trampın Putinə olan xüsusi rəğbətini göstərir.

Necə deyərlər, məşhur təmsildə ifadə olunduğu kimi, əlbir olub bir "ayı" bir "şir" ilə. Lakin ovların "ov"larını "tülkü"yə yedirmək niyyətində olmadıqları da aşkardır. Ona görə də Avropa İttifaqı və digər maraqlı tərəflər passiv aktora çevriliblər.

Zelenskinin yenidən dəyişdirilmiş sülh planına necə reaksiya verməsindən asılı olmayaraq, nəticələr istənilən halda Rusiyanın xeyrinə dəyişəcək.

Ukrayna lideri isə sonda ya Prezident Administrasiyasının (PA) rəhbəri Andrey Yermak kimi istefa verəcək, ya da ağır nəticələri çiyninə götürməyə hazır olacaq.

İstənilən halda isə sülh planı layihəsi var və bu yol xəritəsi üzərində yaxın gələcəkdə kompromis əldə olunacaq. Təbii ki, rusların xeyrinə...

***Ağarza Elçinoğlu***

# Fidan Qara dənizdə gəmilərə hücumlardan danışdı

***Belçikada işgüzar səfərdə olan Türkiyənin xarici işlər nazir Hakan Fidan Ukraynanın Qara dənizdə Rusiya gəmilərinə hücumlarından danışıb.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Brüsseldə keçirilən NATO Xarici İşlər Nazirləri Toplantısına qatılan Hakan Fidan jurnalistin suallarını cavablandırıb

Fidan Qara dənizdə gəmilərə edilən hücumlarla bağlı əhəmiyyətli xəbərdarlıq edib. XİN rəhbəri qeyd edib ki, Bolqarıstan, Rumıniya və Türkiyə xüsusilə müharibə zamanı sahilə çıxan üzən minaları aradan qaldırmaq üçün işçi qrupu yaradıblar.

Dəniz qüvvələrinin də bu mövzuda işlərə başladığını bildirən nazir, "Hücumlar Qara dənizdə naviqasiya təhlükəsizliyini pozur və ticarətə təsir edir. Hücumlar göstərir ki, müharibə coğrafiyası genişlənir və bu, çox qorxuludur", - deyib.

Xatırladaq ki, son bir həftə ərzində Ukrayna Silahlı Qüvvələri Qara dənizdə, Türkiyə sahilləri yaxınlığında Rusiyaya yağ daşıyan tankerləri PUA-larla vurub.

***Gülayə Mecid***

# Ayxan Abbasov cəzalandırıldı

***”Şamaxı”nın baş məşqçisi Ayxan Abbasov cəzalandırılıb.***



”Unikal” xəbər verir ki, bu barədə AFFA-nın İntizam Komitəsinin iclasında qərar qəbul olunub.

30.11.2025-ci il tarixində Misli Premyer Liqasında XIII turun ”Şamaxı” - ”Sumqayıt” oyununun 88-ci dəqiqəsində ”Şamaxı” komandasının baş məşqçisi Ayxan Abbasov rəqib komandanın texniki zonasına aqressiv şəkildə daxil olduğuna görə birbaşa qırmızı vərəqə aldığı üçün 1 oyun oyuna buraxılmasın, ”Şamaxı” komandası 2000 manat cərimə edilsin (maddə 47.2);

30.11.2025-ci il tarixində Misli Premyer Liqasında XIII turun ”Şamaxı” - ”Sumqayıt” oyununda ”Sumqayıt” komandasında 5 nəfər sarı vərəqə aldığı üçün ”Sumqayıt” komandası 700 manat cərimə edilsin (maddə 43.1);

30.11.2025-ci il tarixində Misli Premyer Liqasında XIII turun ”Şamaxı” - ”Sumqayıt” oyununun 88-ci dəqiqəsində ”Sumqayıt” komandasının baş məşqçisi Saşa İliç rəqib komandanın texniki zonasına qeyri etik ifadə və ya hərəkətə görə birbaşa qırmızı vərəqə ilə cəzalandığı üçün 4 oyun oyuna buraxılmasın, ”Sumqayıt” komandası 10000 manat cərimə edilsin (maddə 52.4);

29.11.2025-ci il tarixində Misli Premyer Liqasında XIII turun ”İmişli” - ”Sabah” oyununda ”İmişli” komandasının azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyinə görə ”İmişli” komandası 3000 manat cərimə edilsin (maddə 86.3);

30.11.2025-ci il tarixində Misli Premyer Liqasında XIII turun ”Qəbələ” - ”Araz-Naxçıvan” oyununun 90+4-cü dəqiqəsində ”Qəbələ” komandasının 28 nömrəli futbolçusu Murad Musayev ikici sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun oyuna buraxılmasın, ”Qəbələ” komandası 500 manat cərimə edilsin (maddə 17.5, 17.7);

# "Azərbaycan çempionatı kənardan asan görünsə də..." - Abubakar

***Artıq bu komandaya uyğunlaşmışam, adaptasiya mərhələsini geridə qoymuşam.***



”Unikal” xəbər verir ki, bu sözləri "Neftçi”nin hücumçusu Vensan Abubakar Türkiyənin tanınmış futbol şərhçisi Ertem Şenerə müsahibəsində deyib.

Kamerunlu ulduz futbolçu komandasına kömək üçün əlindən gələni edəcəyini bildirib: “Əvvəlki komandalarımda necə mübarizə aparmışamsa, burada da var gücümlə çalışacağam”.

O, “Neftçi”yə keçməmişdən öncə bir neçə nəfərlə məsləhətləşdiyini söyləyib: “Mənə komanda haqqında xoş sözlər dedilər, böyük klub olduğunu bildirdilər. “Neftçi”nin baş icraçı direktoru Cenk Sümeri “Beşiktaş”dan tanıyırdım. Bu amil qərar verməyimi asanlaşdırdı”.

Afrikalı forvard Misli Premyer Liqası və Azərbaycan haqqında da fikirlərini bölüşüb: “Çempionat kənardan asan görünsə də, belə deyil. Çətin liqadır. Azərbaycana gəlincə, çox gözəl ölkədir. Türkiyədən fərqli tərəfləri var. Bu ölkə haqqında yalnız xoş sözlər deyə bilərəm. Məsələn, insanlar futbolçulara hörmətlə yanaşırlar. “Neftçi” təşkilatlanmış komandadır, burada hər şey yüksək səviyyədədir.

Qeyd edək ki, bu ilin oktyabr ayında “Neftçi”yə keçən Vensan Abubakar Bakı klubu ilə 1+1 illik müqavilə imzalayıb.

# "Qarabağ" - "Ayaks" oyununun biletlərinin əksəriyyəti satılıb

***UEFA Çempionlar Liqasının əsas mərhələsində keçiriləcək "Qarabağ” - ”Ayaks” (Niderland) oyununun biletlərinin əksəriyyəti satılıb.***




”Unikal”ın məlumatına görə, 10, 15, 25, 35 manatlıq biletlər tükənib.

Satış saat 15:00-da başlanıb. 40, 50, 75 manatlıq, həmçinin VIP və VVIP sektorlar üçün biletlər qalıb. Biletlər yalnız iTicket.az-ın mobil tətbiqi və saytı üzərindən əldə edilə bilər.

Qeyd edək ki, qarşılaşma dekabrın 10-da Tofiq Bəhramov adına Respublika stadionunda, saat 21:45-də start götürəcək.

# "Sabah"ın sabiq baş məşqçisindən yeni xəbər

***“Ural” (Rusiya) klubunda baş məşqçi dəyişikliyi gözlənilir.***



QOL.az ”legalbet” saytına istinadən xəbər verir ki, Vasili Berezutski komandanın yeni baş məşqçisi vəzifəsinə əsas namizəddir.

Məlumata əsasən, ”Sabah”ın 43 yaşlı sabiq baş məşqçisi Miroslav Romaşenkonun yerinə gətirilə bilər və tərəflər təyinatın rəsmiləşməsinə çox yaxındır. Qeyd edək ki, Yekaterinburq təmsilçisi son üç oyunda məğlub olaraq ciddi eniş yaşayıb.

Hazırda “Ural” 41 xalla Birinci Liqada 2-ci pillədə qərarlaşıb. Komandanın lider “Fakel”dən geri qalması 7 xaldır.

Qeyd edək ki, Berezutski 2024/25 mövsümündə ”Sabah”ın baş məşqçisi olub. Onun rəhbərliyi altında bu komanda tarixində ilk dəfə Azərbaycan kubokunu qazanıb.



# “Kasımpaşa” Şota Arveladze ilə yollarını ayırdı

***Türkiyənin “Kasımpaşa” komandası baş məşqçisi Şota Arveladze ilə yollarını ayırıb.***

”Unikal” xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb. Gürcüstanlı mütəxəssislə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.

İstanbul təmsilçisi Superliqada 14 turdan sonra 13 xalla 14-cü pillədə qərarlaşıb.

# “Beşiktaş”dan ayrılmaq istəyən futbolçu məşqlərə geri qayıdıb

***Türkiyənin “Beşiktaş” komandasından ayrılacağı ilə bağlı gündəmə gələn Rafa Silva məşqlərə çıxıb.***



”Unikal” xəbər verir ki, 32 yaşlı portuqaliyalı futbolçu bu gün İstanbul təmsilçisinin hazırlıq prosesində iştirak edib.

Oyunçu bir müddət zədədən də əziyyət çəkirdi.

Qeyd edək ki, Rafa Silva 2024-cü ilin yayından “Beşiktaş”da çıxış edir.

# Ronaldonun nişanlısı fotoları ilə diqqət çəkdi

***Futbolçu Kriştianu Ronaldonun nişanlısı çimərlik geyimində fiqurunu nümayiş etdirib.***

”Unikal” xəbər verir ki, Georgina Rodriguez istirahət zamanı çəkilmiş fotolarını ”Instagram”da yerləşdirib.

Xatırladaq ki, bu ilin avqustunda model sosial şəbəkədə Ronaldo ilə nişanlandığını açıqlayıb.

# Juninyo çempion oldu

***Futbol üzrə Braziliya A Seriyasının qalibi müəyyənləşib.***

”Unikal” xəbər verir ki, ”Flamenqo” sona bir tur qalmış çempionluğu təmin edib.

Komanda buna XXXVII turda öz meydanında ”Seara”nı 1:0 hesabı ilə məğlub etməklə nail olub. Yeganə qolu 37-ci dəqiqədə Samuel Lino vurub. Bu qələbədən sonra xallarını 78-ə çatdıran ”Flamenqo” ən yaxın izləyicisi ”Palmeyras”ı 5 xal qabaqlayır.

Qeyd edək ki, hazırda ”Flamenqo”nun heyətində ”Qarabağ”ın sabiq futbolçusu Juninyo da çıxış edir. Braziliyalı hücumçu bu ilin yanvar ayında ölkəsinin komandasına keçib. “Flamenqo” bir neçə gün öncə Libertadores Kubokunun da qalibi olub.

# "Liverpul" xal itirdi, "Çelsi" uduzdu

***İngiltərə Premyer Liqasında XIV turun növbəti oyunları keçirilib.***

”Unikal” xəbər verir ki, “Arsenal” evdə “Brentford”dan üstün olub - 2:0.

“Liverpul” “Sanderlend”lə 1:1 hesablı heç-heçə edib.

“Çelsi” isə “Lids”ə 1:3 hesabı ilə uduzub.

“Arsenal” 33 xalla turnir cədvəlinə başçılıq edir. “Çelsi” 24 xalla 2-ci, Mersisayd təmsilçisi isə 22 xalla 8-ci yerdədir.